QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 088 (5560) 8 may 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymıəti 40 qəpik**

# Bakı Olimpiya Stadionundan Heydər Əliyev prospektinə keçid və müxtəlif səviyyəli yol qovşağının açılışı olub

*Prezident İlham Əliyev açılışda iştirak edib*



Səh 2

4

**Əli Əhmədov: "Parlament seçkiləri 2020-ci ildə keçiriləcək"**



6

**Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlığı Komitəsinin XV iclası öz işinə başlayıb**



5

**Azərbaycanda söz, fikir və mətbuat azadlığının formalaşması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır**



# Bakı Olimpiya Stadionundan Heydər Əliyev prospektinə keçid və müxtəlif səviyyəli yol qovşağının açılışı olub

## *Prezident İlham Əliyev açılışda iştirak edib*



### *Rəsmi xronika*

Prezident İlham Əliyev Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin hakimi Samir Mayılovun iş yerinin dəyişdirilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Səbuhi Şahverdiyevin Naxçıvan Muxtar Respublikasının prokuroru təyin edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Futbol üzrə UEFA Avropa Liqasının final oyununun 2019-cu ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Kamran İmanovun Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri təyin edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Ağdaş rayonunun Nehrəxəlil-Kotanarx-Cardam-Tofiqi-Şəmsabad avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.







***Mayın 7-də Bakı Olimpiya Stadionundan Heydər Əliyev prospektinə keçid və müxtəlif səviyyəli yol qovşağının açılışı olub.***

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına layihənin texniki göstəriciləri barədə məlumat verdi. Burada inşa edilən tunelin qapalı hissəsinin uzunluğu 130, açıq hissəsinin uzunluğu 366 metr olmaqla ümumi uzunluğu 496 metrə bərabərdir. Tunelin hərəkət hissəsinin eni 10 metrdir. Layihə çərçivəsində 193 metr yanaşma yolları inşa olunub, həmçinin Sabunçu yol qovşağınadək uzunluğu 702, eni isə 12 metr olan yeni yol hissəsi salınıb. Layihə zamanı inşa olunan biraşırımlı körpünün uzunluğu 27 metr, eni isə 12 metrdir. Bu yol qovşağının inşası zamanı genişmiqyaslı tikinti-quraşdırma işləri görülüb, tunel və yan yollarda sutkanın qaranlıq saatlarında təhlükəsiz hərəkət etmək üçün işıq dirəkləri qoyulub, iki nasosxana quraşdırılıb, tikinti sahəsinə düşən kanalizasiya və rabitə xətləri köçürülüb. Layihənin icrası yüksək səviyyədə və keyfiyyətlə yerinə yetirilib. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi qovşağın inşasını texnoloji ardıcıllığa riayət olunmaqla aparıb.

Avtonəqliyyat vasitələrinin rahat və maneəsiz hərəkətini təmin etmək, paytaxt yollarında sıxlığın azaldılması istiqamətinə dövlətimizin başçısının tövsiyə və tapşırıqlarına əsasən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən tunelin inşasında məqsəd günün pik saatlarında metronun "Koroğlu" stansiyasının qarşısında yaranan tıxacı aradan qaldırmaqdır. Bu layihənin icrası burada yarana biləcək tıxacların qarşısının alınmasında mühüm rol oynayır. Belə ki, Ziya Bünyadov prospekti istiqamətindən gələn avtonəqliyyat vasitələri Böyük Şor yol qovşağına daxil olmadan, həmçinin metronun "Koroğlu" stansiyasının qarşısından keçmədən yeni avtomobil tuneli ilə Ziya Bünyadov prospektindən Olimpiya kəndi istiqamətinə və oradan da Bakı Olimpiya Stadionunun arxa hissəsində salınan yoldan və tuneldən istifadə etməklə hava limanı istiqamətinə hərəkət edəcək.

Dövlətimizin başçısına məlumat verildi ki, yollarda tıxacların azaldılması məqsədilə layihə çərçivəsində Heydər Əliyev prospektində - Sabunçu yol qovşağından Böyük Şor yol qovşağınadək olan hissədə təmir-tikinti işləri aparılıb. Əsaslı şəkildə yenidən qurulan yolun bu hissəsinin uzunluğu 2,1 kilometr, eni isə ərazilərdən asılı olaraq 26-36 metr təşkil edir. Bu hissədə intensiv hərəkət nəticəsində asfalt-beton örtüyünün üst qatında aşınmalar yaranmışdı. Bu səbəbdən də asfalt-beton örtüyünün aşınma qatının yenilənməsinə ehtiyac yaranmışdı. Təmir işləri çərçivəsində yolboyu köhnə asfalt-beton örtüyünün üst qatı frezlənərək kənara daşınıb, yola ikiqat olmaqla yeni asfalt-beton örtüyü döşənib. Ümumilikdə, bu işlər Sabunçu yol qovşağından şəhər mərkəzinə doğru olan istiqamətdə üç hərəkət zolağında aparılıb. Görülən təmir-tikinti işləri zamanı yol ayrıcında quraşdırılmış əyrixətli dəmir tirlər və köhnə səki daşları sökülərək kənarlaşdırılıb, buraya yeni səki daşları düzülüb.

Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi. Yeni-yeni yol qovşaqlarının yaradılması, müasir yolların salınması, mövcudlarının isə ən yüksək səviyyədə yenidən qurulması Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən sosial siyasətin mühüm tərkib hissəsini təşkil edir. Bu layihələrin icrası, ilk növbədə, nəqliyyat vasitələrinin, eyni zamanda, sərnişinlərin rahat və təhlükəsiz hərəkətinə mühüm töhfələr verir. Bütün bunlarla yanaşı, belə layihələrin paytaxtımızın giriş qapısı sayılan Heydər Əliyev Beynəlxalq Hava Limanından şəhər istiqamətinə olan yolları əhatə etməsi Azərbaycana gələn qonaqlarda ölkəmizin ümumi sosial-iqtisadi inkişafı barədə xoş təəssürat yaradır.

Bu gün ölkəmiz müasir yol qovşaqları, yeni yol-nəqliyyat infrastrukturu ilə nəinki regionun, ümumilikdə, dünyanın aparıcı ölkələri sırasındadır. Azərbaycanda icra olunan yol layihələri istər miqyası, istər əhəmiyyəti, istərsə də keyfiyyəti ilə seçilir. Bütün bu işlər bir daha sübut edir ki, ölkədə həyata keçirilən dövlət siyasətinin mərkəzində vətəndaşlarımızın maraqları və sosial vəziyyəti dayanır.

# Azərbaycan-Rusiya strateji tərəfdaşlıq əlaqələri uğurla inkişaf edir

## *Azərbaycan və Rusiya Prezidentləri arasında telefon danışığı olub*

***Mayın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edib.***

Dövlətimizin başçısı Vladimir Putini Rusiya Federasiyasının Prezidenti vəzifəsinin icrasına başlaması münasibətilə təbrik edib, ona Rusiya xalqının firavanlığı naminə fəaliyyətində yeni uğurlar arzulayıb. Dövlətimizin başçısı, eyni zamanda, Rusiya Prezidentinə qarşıdan gələn 9 May - Qələbə günü münasibətilə də təbriklərini çatdırıb.

Prezident Vladimir Putin təbrikə və göstərilən diqqətə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib və öz növbəsində dövlətimizin başçısını qarşıdan gələn 9 May - Qələbə günü münasibətilə təbrik edib.

Prezident İlham Əliyev təbrikə görə təşəkkür edib. Söhbət zamanı dövlət başçıları Azərbaycan-Rusiya strateji tərəfdaşlıq əlaqələrinin uğurlu inkişafını qeyd edib, ikitərəfli münasibətlərimizin perspektivləri ətrafında fikir mübadiləsi aparıblar.



# "Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolu getdikcə daha da artmaqdadır"

## *Prezident İlham Əliyev Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin üzvlərindən ibarət nümayəndə heyətini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 7-də Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin sədri, Avropa Mühafizəkarlar və İslahatçılar Qrupunun üzvü, Böyük Britaniyadan olan deputat Sayyad Kərimin başçılıq etdiyi Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin üzvlərindən ibarət nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, Avropa İttifaqı ilə əlaqələrin uğurla inkişaf etdiyini bildirən dövlətimizin başçısı Avropa Komissiyasında keçirilən son görüşlərini məmnunluqla xatırladı və bu səfərin nəticəsi kimi yeni saziş üzərində işlərin başlandığını dedi. Prezident İlham Əliyev qeyd etdi ki, eyni zamanda, Azərbaycan Avropa İttifaqı üzv dövlətlərinin üçdəbiri ilə artıq strateji tərəfdaşlıq sənədi imzalayıb və ya qəbul edib. Bunu əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirən Prezident İlham Əliyev əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, təhlükəsizlik, mədəni, ticarət və enerji təhlükəsizliyi sahələrində həyata keçirildiyini qeyd edərək Avropa İttifaqının Azərbaycanın ən böyük ticarət tərəfdaşı olduğunu, öz növbəsində, Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolunun getdikcə daha da artdığını vurğuladı. Nəqliyyat infrastrukturu sahəsinə toxunan dövlətimizin başçısı ötən il istismara verilən Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin Asiya ilə Avropa arasında mühüm nəqliyyat körpüsü rolunu oynadığını və Azərbaycanın Avrasiya məkanında önəmli nəqliyyat qovşağına çevrildiyini bildirdi. Prezident İlham Əliyev əməkdaşlığımızın bundan sonra da möhkəmlənəcəyinə əminliyini ifadə etdi.

Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin sədri Sayyad Kərim və nümayəndə heyətinin üzvləri Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə dövlətimizin başçısını təbrik etdilər. Sayyad Kərim son iki il ərzində Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın çox müsbət və konstruktiv istiqamətdə inkişaf etdiyini məmnunluqla bildirdi. O, Avropa İttifaqı ilə Azərbaycan arasında 2017-ci ildə başlanan danışıqların uğurla davam etdirildiyini qeyd etdi. Azərbaycana səfər proqramının çox sıx olduğunu qeyd edən Sayyad Kərim tərəflərin əməkdaşlığın inkişafında maraqlı olduğunu və Azərbaycanın Milli Məclisi ilə əməkdaşlıq üçün yaxşı əsas yarandığını vurğuladı. Sayyad Kərim təmsil etdiyi qurumun Azərbaycanla iqtisadi, nəqliyyat, enerji, investisiya, parlamentlərarası əlaqələr və digər sahələrdə əməkdaşlığı üçün böyük imkanların olduğunu dedi.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı. Prezident İlham Əliyev münaqişənin həlli ilə bağlı Azərbaycanın mövqeyini bildirdi. Sonda xatirə şəkli çəkdirildi.



## Yeni Azərbaycan Partiyasının rəhbərliyi Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edib






Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə keçirilən "Heydər Əliyev" portretinin təqdimat mərasiminin iştirakçıları mayın 7-də Fəxri Xiyabana gələrək, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ulu öndər Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyublar.

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə gül dəstələri düzülüb.

## Mübariz Qurbanlı Osman Nuri Topbaşın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı mayın 7-də Türkiyənin Əziz Mahmud Hudayi Vəqfinin fəxri sədri Osman Nuri Topbaşın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Qonaqları yenidən ölkəmizdə salamlamaqdan məmnunluq hissi keçirdiyini bildirən Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı onları Azərbaycanın nümunəvi dövlət-din modelinin əsasları barədə məlumatlandırıb. Bildirib ki, bünövrəsi Ulu Öndər Heydər Əliyevə məxsus olan bu model bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Mübariz Qurbanlı yaxın zaman kəsiyində dövlət başçısı tərəfindən ölkəmizdə "İslam Həmrəyliyi İli"nin elan edilməsinin, Mənəvi Dəyərlərin Təbliği Fondu, Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasının islami, milli-mənəvi dəyərlərimizə verilən ən yüksək qiymət olduğunu diqqətə çatdırıb.

Dövlət Komitəsinin sədri ölkədə mövcud dini konfessiyaların dəstəklənməsinin, mənəvi dəyərlərin qorunması və inkişafının, habelə bu sahəyə dövlət dəstəyinin gücləndirilməsinin təmin edilməsi məqsədilə yaradılan Mənəvi Dəyərlərin Təbliği Fondunun xətti ilə din xadimlərinə maddi dəstək verildiyini də vurğulayıb.

Məscidlərin yalnız ibadət deyil elm, irfan mərkəzi olduğunu deyən Mübariz Qurbanlı dindarlar arasında və cəmiyyətdə müasir dünyagörüşünün təlqin edilməsi, dünyəvi dövlətin əsaslarının düzgün təbliğ edilməsi üçün ixtisaslı kadrların hazırlanması baxımından İlahiyyat İnstitutunun yaradılmasını önəmli addım adlandırıb.

Dövlət Komitəsinin fəaliyyət istiqamətləri barədə də qonaqları məlumatlandıran Mübariz Qurbanlı DQİDK-nın xüsusi diqqət yetirdiyi dini radikalizmə və xurafata qarşı mübarizədə Qafqaz Müsəlmanları İdarəsi ilə yaxından əməkdaşlıq etdiyini bildirib.

Səmimi qəbula görə təşəkkürünü bildirən O.N.Topbaş Bakıya sonuncu səfərindən sonra paytaxtımızın daha da gözəlləşdiyini, Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycanda bütün sahələrdə sürətli inkişafın, tərəqqinin şahidi olduğunu deyib. O, eyni zamanda Azərbaycanda dinə, din xadimlərinə olan xüsusi diqqət və qayğıdan məmnun olduğunu vurğulayıb. Ötən il ölkəmizdə elan edilən "İslam Həmrəyliyi İli" çərçivəsində İslamın sabitlik və sülh kimi ideyalarının təbliğ edilməsinin vacibliyindən danışıb.

Görüşdə dini sahədə qarşılıqlı maraq doğuran bir sıra məsələlər də müzakirə olunub.

## Əli Əhmədov: "Parlament seçkiləri 2020-ci ildə keçiriləcək"



***Baş nazirin müavini, YAP-ın sədr müavini - icra katibi Əli Əhmədov Azərbaycanda növbədənkənar parlament seçkilərinin keçirilməsi ilə bağlı məsələyə aydınlıq gətirib. SİA-nın xəbərinə görə, jurnalistlərə açıqlama verən Ə.Əhmədov deyib: "Mənim növbədənkənar parlament seçkiləri barədə heç bir məlumatım yoxdur. Mən bildiyim qədər Azərbaycanda parlament seçkiləri 2020-ci ildə keçiriləcək".***

### "Saxta dərman satışı ilə məşğul olmaq da ən böyük cinayətdir"

Əli Əhmədov, həmçinin Daxili İşlər Nazirliyi tərəfindən bir müddət öncə saxta dərman satışı ilə məşğul olan bir qrup şəxsin tutulması ilə bağlı məsələyə də münasibət bildirib. Ə.Əhmədov deyib ki, saxtakarlığa qarşı hər bir kəs mübarizə aparmalıdır: "Bir neçə gün əvvəl saxta dərman satışı ilə məşğul olan bir qrup şəxs ifşa edildi. Belə insanlara qarşı mübarizə qətiyyətlə davam edəcək. Saxtakarlıq heç kimə baş ucalığı gətirməyib".

### "Ermənistanda daxili qarşıdurma uzun müddət davam edəcək"

Əli Əhmədov, həmçinin Ermənistanda baş verən hadisələrlə bağlı da fikirlərini jurnalistlərlə bölüşüb. O bildirib ki, Ermənistanda tənəzzül bu qarşıdurmalara gətirib çıxarıb: "Bu çətinliklər 3-5 aya aradan qalxmayacaq. Bu, kiminsə baş nazir seçilməsindən asılı deyil. Nə qədər Ermənistan təcavüzkar siyasəti davam etdirəcək, erməni xalqı üçün bu məşəqqətlər, çətinliklər qalacaq. ".

## PA rəsmisi: "Heydər Əliyev tərəfindən əsası qoyulan media siyasəti uğurla davam edir"



"Heydər Əliyevin istəyi o idi ki, Azərbaycan mətbuatı müstəqil olsun". SİA-nın verdiyi məlumata görə, bunu "Heydər Əliyev siyasəti: hüquqi dövlət quruculuğunda media təminatı" mövzusunda keçirilən konfransda Azərbaycan Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdir müavini Vüqar Əliyev deyib. PA rəsmisi qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin adı Azərbaycanın tarixinə qızıl hərflərlə həkk olunub: "Onun gördüyü işlər Azərbaycanın uğurlu inkişafının əsasını qoyub. Heydər Əliyevin istəyi o idi ki, Azərbaycan mətbuatı müstəqil olsun, bütün səylərini də buna yönəldirdi. Günümüzdə də dövlətin mətbuat üzərində hər hansı nəzarəti yoxdur. Ümumilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan media siyasəti bu gün də uğurla davam edir".

## Oleq Korneyev: "Muxtar respublikanın paytaxtı tamamilə yenidən qurulub"

İlk dəfə Naxçıvana 1984-cü ildə şahmat yarışında iştirak etmək üçün gəlmişdim. Ondan sonra da bu diyara səfər etmişəm. Bu dəfə isə Naxçıvana gələndə inanılmaz dəyişikliklərin şahidi oldum. Sanki muxtar respublikanın paytaxtı tamamilə yenidən qurulub, ucaldılıb. Bu sözləri AZƏRTAC-ın Naxçıvan bürosuna müsahibəsində "Naxçıvan-2018" Beynəlxalq Şahmat Festivalının iştirakçısı, İspaniya təmsilçisi qrossmeyster Oleq Korneyev deyib. "Naxçıvan şəhərində müasir yollar, binalar, göz oxşayan parklar salınıb. Bir şahmatçı kimi mənim diqqətimi cəlb edən yer isə Naxçıvan Şahmat Mərkəzi oldu. Bu mərkəz, sözün əsl mənasında, möhtəşəmdir" - deyən Oleq Korneyev qeyd edib ki, artıq üçüncü dəfədir Naxçıvanda təşkil olunan Beynəlxalq Şahmat Festivalında iştirak edir. İspaniya təmsilçisi deyib: "Dünyanın bir çox yerlərində yarışlarda olmuşam. Amma buradakı qədər yüksək səviyyəli təşkilatçılığa demək olar ki, rast gəlməmişəm. Şahmatçıların yarışlarda iştirakı, istirahəti, asudə vaxtlarının təşkili üçün hər cür şərait yaradılıb. Buna görə festivalın təşkilatçılarına minnətdarlığımı bildirirəm".

## Yaxın zamanda Azərbaycan özünü bütün məhsullar üzrə toxumla təmin edəcək

Azərbaycan və Türkiyə arasında pambıqçılıq, yem bitkilərinin, taxılçılıq və tərəvəz toxumçuluğu ilə bağlı böyük layihələr var. Bu layihələri həyata keçirmək üçün Azərbaycanın Kənd Təsərrüfatı Nazirliyi və Türkiyənin Qida, Kənd Təsərrüfatı və Heyvandarlıq Nazirliyi özəl sektora dəstək olacaq. AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan-Türkiyə biznes forumunda kənd təsərrüfatı nazirinin müavini İlham Quliyev jurnalistlərə müsahibəsində deyib. Onun sözlərinə görə, Türkiyə və Azərbaycanın iqlim şəraiti bir-birinə uyğundur. Türkiyədə istifadə olunan toxumlar Azərbaycanda sınaqdan çox uğurla çıxıb. Məhz buna görə də, Türkiyə ilə əlaqələrimizin daha da genişləndirilməsi Azərbaycan üçün önəmlidir. Nazir müavini, həmçinin əlavə edib ki, bu il Türkiyədən 16 min toxum gətirilib. Onun əsas hissəsi pambıqçılıqla bağlıdır. Çünki bu sahədə toxumçuluq sahəsində təminatımız demək olar ki, aşağı səviyyədədir. Lakin toxumçuluğun istehsalı üçün nazirlik tərəfindən ciddi tədbirlər həyata keçirilir: "Hazırda Ucarda pambıq toxumu zavodu tikilir və bu il müəssisənin tikintisinin başa çatdırılması nəzərdə tutulub. Hesab edirəm ki, bu sahəni genişləndirərək, istər pambıqçılıq, yemçilik, istərsə də taxılçılıq sahəsində öz daxili istehsalımız hesabına toxuma təminatı artıracağıq". İ.Quliyev bildirib ki, ölkəni toxumla daxili istehsal hesabına təmin etmək üçün nazirlik tərəfindən geniş tədbirlər planı hazırlanır. Çox güman ki, yaxın zamanda respublika özünü bütün məhsullar üzrə toxumla təmin edəcək.



# Bakıda “Heydər Əliyev və Azərbaycanın inkişaf konsepsiyası” mövzusunda elmi-praktiki konfrans keçirilib

***Mayın 7-də Bakıda Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının təşkilatçılığı ilə “Heydər Əliyev və Azərbaycanın inkişaf konsepsiyası” mövzusunda elmi-praktiki konfrans keçirilib.***

AZƏRTAC xəbər verir ki, Şuranın sədri, Milli Məclisin deputatı Azay Quliyev tədbiri açaraq ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin hər bir soydaşımız üçün əzmkarlıq, mübarizə və qalibiyyət nümunəsi olduğunu söyləyib. Bildirib ki, Ulu Öndərin müstəqil dövlət quruculuğu sahəsində gördüyü işləri təhlil edib geniş ictimaiyyətə çatdırmaq və nəsillərin yaddaşında daim yaşatmaq dövlət əhəmiyyətli strateji məsələdir.

Konfransda çıxış edən Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov ulu öndər Heydər Əliyevin dövlətimiz və xalqımız qarşısındakı mühüm xidmətlərindən danışıb. O bildirib ki, Heydər Əliyevin xatirəsi hər bir vətənpərvər azərbaycanlının qəlbində yaşayır və yaşayacaq. Ulu Öndərin Azərbaycan xalqı qarşısındakı böyük xidmətlərinin ön sırasında onun 1993-cü ildə dövlətimizin xilas edilməsi missiyası durur. Hər il qeyd etdiyimiz 15 iyun - Milli Qurtuluş Günü onun xilaskarlıq missiyasının başlanğıcıdır. Heydər Əliyev Azərbaycan dövlətini məhv olmaqdan xilas etdi. Xalqımız bu xidməti hər zaman yüksək qiymətləndirir. Müstəqil Azərbaycan dövlətinin xilası məhz Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Lider 1993-cü ildə xalqımızın birliyinə nail olmasaydı, dövlətimizin gələcəyindən danışmaq mümkün olmazdı. Hazırda Azərbaycanda milli birliyə əsaslanan sabitlik var. Ümummilli Liderimiz hələ Naxçıvanda olarkən ziyalılara çağırış edirdi. O qeyd edirdi ki, xalq birləşməlidir.

Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı böyük xidmətlərindən biri də ölkəni inkişaf yoluna çıxarmasıdır. Onun hakimiyyətə qayıdışından sonra ölkəmizdə bütün sahələrdə inkişaf başladı. Azərbaycanda bazar iqtisadiyyatının inkişafı da Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər həmişə deyirdi ki, iqtisadiyyatın təməli sağlam qoyulmalıdır, hər bir vətəndaş özünü orada görməlidir. Bu gün Ulu Öndərimizin siyasi kursunu Prezident İlham Əliyev müvəffəqiyyətlə davam etdirir. Hazırda Azərbaycan regionun lider dövlətidir. Azərbaycan böyük inkişaf dövrünü yaşayır.

Prezidentin köməkçisi bildirib ki, Azərbaycan dövləti Heydər Əliyevin hakimiyyətə gəldiyi 1993-cü ildən başlayaraq QHT-lərlə əməkdaşlıq kursu həyata keçirir. İlk dəfə Azərbaycan iqtidarı məhz Heydər Əliyevin hakimiyyəti dövründə QHT-lərə tərəfdaş kimi baxmağa başladı və bunun nəticəsi olaraq, Azərbaycan Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası yaradıldı. Bu gün də Şura öz fəaliyyətini uğurla həyata keçirir. Ə.Həsənov qeyd edib ki, Heydər Əliyev 15 ildir ki aramızda olmasa da, onun əziz xatirəsi millətini, xalqını sevən hər bir vətənpərvər azərbaycanlının qəlbində yaşayır.

Əli Həsənov bildirib ki, ümummilli lider Heydər Əliyevin mühüm xidmətlərindən biri də azərbaycançılıq ideyasını dövlət siyasəti səviyyəsinə gətirməsi oldu.

Ümummilli Liderin əsas xidmətlərindən biri də Azərbaycanın siyasi, ictimai inkişafının istiqamətlərini müəyyənləşdirməsi və bunu Konstitusiyada təsbit etməsidir. 1993-cü ildə Azərbaycan müxtəlif modellər seçə bilərdi. Ümummilli Lider hakimiyyətə gələrkən başqa model də seçə bilərdi. Əminəm ki, Ulu Öndərin nüfuzu elə güclü idi ki, hansı modeli seçsəydi, qəbul olunardı. O isə məhz ən mükəmməl yolu - Azərbaycan Xalq Cümhuriyyətinin müəyyən etdiyi inkişaf yolunu seçdi.

Prezidentin köməkçisi bildirib ki, Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyası ölkəmizin inkişafında önəmli rol oynayır. Ümummilli Liderin qurduğu Azərbaycan nəinki regionun aparıcı ölkələrindən biridir, eləcə də dünyada böyük nüfuza malikdir.

Konfransda Şuranın sifarişi ilə hazırlanmış, ümummilli lider Heydər Əliyevə həsr edilən “Alilikdə sadəlik” adlı qısametrajlı sənədli filmin təqdimatı olub.

Sonra Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) rektoru, akademik Urxan Ələkbərov “Heydər Əliyev və Azərbaycanın inkişaf konsepsiyası: proses və nəticə” mövzusunda məruzə ilə çıxış edib. Akademik məruzəsində beynəlxalq təşkilatların hesabatlarına əsaslanaraq Azərbaycanın inkişaf templərini konkret faktlarla göstərib. Bildirilib ki, ulu öndər Heydər Əliyev müasir müstəqil Azərbaycan dövlətinin siyasi, iqtisadi əsaslarını yaradıb. Ümummilli Liderin müstəqillik konsepsiyasının, sosial-iqtisadi inkişaf strategiyasının uzaqgörənliyi Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin qazandığı böyük uğurlarda bir daha tarixi təsdiqini tapır. Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi dövr ölkəmizdə müstəqilliyin əbədi və dönməz xarakter alması, dövlətçiliyin möhkəmləndirilməsi, iqtisadi inkişaf üçün etibarlı təməlin yaradılması, milli mənəvi yüksəliş, hər bir fərdin özünü layiqli vətəndaş olaraq dərk etməsi ilə müasir tariximizə əbədi həkk olunub. Azərbaycanın milli iqtisadiyyatının formalaşmasında Ulu Öndərin xidmətləri misilsizdir. Bu gün Azərbaycanda sosial-iqtisadi, ictimai-mədəni həyatın elə bir sahəsi yoxdur ki, həmin sahənin inkişafı Ümummilli Liderin adı ilə bağlı olmasın.

Toplantıda QHT rəhbərləri Məhərrəm Zülfüqarlı, Tamam Cəfərova və Mirhəsən Seyidov çıxış edərək ulu öndər Heydər Əliyevin müasir Azərbaycan dövlətinin qurulmasında və inkişafında göstərdiyi xidmətlərdən danışıblar.

Sonra ümummilli lider Heydər Əliyevin 95 illiyi münasibətilə Şuranın sifarişi ilə hazırlanmış, sözləri və musiqisi İlahə İsrafilovaya məxsus “Sən dahisən” kompozisiyanın “Avanqard” Kamera orkestrinin, Azərbaycan Milli Konservatoriyasının xor kollektivinin və müğənnilər - Xalq Artisti Heydər Anatollu, İlahə Qismət və Orxan Cəlilovun ifasında təqdimatı olub.

# Azərbaycanda söz, fikir və mətbuat azadlığının formalaşması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır

Mayın 7-də Beynəlxalq Mətbuat Mərkəzində Mətbuat Şurasının təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyi ilə əlaqədar “Heydər Əliyev siyasəti: hüququ dövlət quruculuğunda media təminatı” mövzusunda konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov ulu öndər Heydər Əliyevin hakimiyyətdə olduğu dövrdə Azərbaycanın ictimai-siyasi həyatında əldə edilən nailiyyətlərdən, ölkənin daxili inkişafı, beynəlxalq aləmdə imicinin formalaşması istiqamətində görülən işlərdən, Azərbaycanın hüquqi dövlətə çevrilməsi yönündə həyata keçirilən islahatlardan danışıb.

Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdir müavini Vüqar Əliyev ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda demokratik mətbuatın formalaşması istiqamətində görülən mühüm işlərdən bəhs edib.

Vüqar Əliyev qeyd edib ki, Ümummilli Lider hakimiyyətdə olduğu bütün dövrlərdə söz və məlumat azadlığının, medianın inkişafına xüsusi diqqət göstərib. Azərbaycan SSR-in




1978-ci ildə qəbul edilmiş Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit olunması istər ədəbi sahədə, istərsə də mətbuat sahəsində yeni canlanma yaratdı, Azərbaycan dilində qəzetlərin sayı artırıldı, televiziyada verilişlərin ana dilimizdə yayımı genişləndirildi. Heydər Əliyev Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində ixtisaslı kadrların hazırlanması üçün əhəmiyyətli addımlar atıb. Bundan başqa, 1995-ci ildə ümumxalq səsverməsi ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında söz, fikir və məlumat azadlığı, hər kəsin sərbəst şəkildə məlumat əldə etmək və yaymaq hüququ, KİV üzərində senzuranın yolverilməzliyi təsbit edilib. 1998-ci ildə KİV-lərdə dövlət sirlərini mühafizə edən baş idarə ləğv olunub. 1999-cu ildə “Kütləvi informasiya vasitələri haqqında”, sonrakı illərdə isə medianın fəaliyyətini tənzimləyən digər çoxsaylı demokratik qanunlar qəbul edilib. 2000-ci ildə Mətbuat və İnformasiya Nazirliyi ləğv olunub və dövlətin mətbuat üzərində nəzarət funksiyası aradan qaldırılıb. 2003-cü ildə Azərbaycan jurnalistlərinin I qurultayında postsovet məkanında ilk dəfə ölkəmizdə Mətbuat Şurası yaradılıb. 2002-ci ildə Sahibkarlığa Kömək Milli Fondundan KİV sahəsində layihələrin maliyyələşdirilməsi üçün 600 min manat vəsait ayrılıb. 2003-cü ildə qəzetlərin “Azərbaycan” nəşriyyatına borcları 3 il müddətinə dondurulub, 2006-cı ilin martında isə onların 450 min ABŞ dolları həcmində borcunun dövlət büdcəsi hesabına ödənilməsi qərara alınıb.

Vurğulanıb ki, Ulu Öndərin siyasi kursu Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Belə ki, mətbuata dəstək məqsədilə Prezident yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradılıb. Fondun xətti ilə media layihələrinə 40 milyon manata yaxın vəsait ayrılıb. 2013-cü ildə 156 jurnalistin, 2017-ci ildə isə 255 jurnalistin Prezident İlham Əliyev tərəfindən yeni mənzillərlə mükafatlandırılması dövlətin mediaya verdiyi qiymətin bariz nümunəsidir. “Bu gün birmənalı şəkildə demək olar ki, Azərbaycanda müstəqil demokratik mətbuatı məhz ümummilli lider Heydər Əliyev formalaşdırıb”, - deyə Prezident Administrasiyasının rəsmisi vurğulayıb.

Tədbirdə çıxış edən “İki sahil” qəzetinin baş redaktoru, Mətbuat Şurası İdarə Heyətinin üzvü Vüqar Rəhimzadə, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu, Prezident yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli, Milli Məclisin deputatı Aqil Abbas, “Səs” Media Holdinqin rəhbəri Bəhruz Quliyev və başqaları Azərbaycanda sağlam və peşəkar mətbuatın formalaşmasında xalqımızın ümummilli lideri Heydər Əliyevin əvəzsiz xidmətlərindən danışıblar. Vurğulanıb ki, Azərbaycanda söz, fikir və mətbuat azadlığının formalaşması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin bütün sahələrdə olduğu kimi, bu sahədə də siyasəti hazırda Prezident İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilir.

# Yeni nəsil şəxsiyyət vəsiqələrində 2019-cu ildən elektron imza sertifikatı tətbiq olunacaq

2019-cu ildən Azərbaycanda yeni nəsil şəxsiyyət vəsiqələrində elektron imza sertifikatının tətbiqi nəzərdə tutulub. AZƏRTAC xəbər verir ki, bu barədə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Məlumat Hesablama Mərkəzinin marketinq şöbəsinin müdiri Ceyhun Məmmədov “Mobil elektron imza” layihəsinin təqdimatı zamanı məlumat verib.

O bildirib ki, nəzərdə tutulan yenilik elektron imzanın kütləviləşməsinə gətirib çıxaracaq. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi bu istiqamətdə daim təkmilləşdirmə işləri həyata keçirir, vətəndaşların xidmətlərdən daha rahat şəkildə yararlanmaları üçün şərait yaratmaqda davam edir.




# Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlığı Komitəsinin XV iclası öz işinə başlayıb

***Mayın 7-də Milli Məclisdə Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlığı Komitəsinin XV iclası öz işinə başlayıb. AZƏRTAC xəbər verir ki, iki gün davam edəcək iclasın birinci günündə Azərbaycan-Avropa İttifaqı arasında hərtərəfli sazişlə bağlı danışıqların cari durumu, ölkəmizdə siyasi dialoq və islahatlar, iqtisadi əməkdaşlıq, enerji, nəqliyyat məsələlərinə dair müzakirələr aparılıb.***

İclası açan Avropa İttifaqı-Azərbaycan Parlamentlərarası Əməkdaşlıq Komitəsinin həmsədri Cavanşir FEYZİYEV bildirib ki, Avropa İttifaqı və Azərbaycan parlamentləri arasında birillik fasilədən sonra 2016-cı ilin sonunda bərpa olunan əlaqələr bu gün çox intensiv xarakter alıb. 2017-ci ildə Azərbaycan nümayəndə heyəti dəfələrlə Brüsselə və Strasburqa səfər edib, eləcə də Avropa Parlamentinin nümayəndələri il ərzində Azərbaycana gəliblər. Hesab edirik ki, Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında genişlənən əlaqələrdə parlamentlərarası əməkdaşlığın rolu çox böyükdür.

“Biz Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin zamanın nəbzini tutaraq inkişaf etməsindən çox razıyıq”, - deyən Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin sədri, Avropa Mühafizəkarlar və İslahatçılar Qrupunun üzvü, Böyük Britaniyadan olan deputat Sayyad Kərim qurumla ölkəmiz arasında ortaq çağırışların olduğunu söyləyib. O, mövcud əlaqə və əməkdaşlıqdan danışaraq bildirib ki, Azərbaycanın ticarətinin yarısı Avropa İttifaqı ölkələrinin payına düşür. Avropa İttifaqı ölkələrinin neftə tələbatının müəyyən hissəsini də Azərbaycan təmin edir. Avropa İttifaqı “Cənubi Qafqaz Qaz Dəhlizi” layihəsinə böyük önəm verir. Əməkdaşlığın təkcə enerji ilə məhdudlaşmadığını deyən Sayyad Kərim qeyd edib ki, Avropa İttifaqını Azərbaycanın böyük nəqliyyat qovşağına çevrilməsi də maraqlandırır. Azərbaycan artıq Avropa və Asiya arasında nəqliyyat mərkəzinə çevrilir. Bu sahədə böyük imkanlardan biri Bakı-Tbilisi-Qars dəmir yoludur. “Xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycandakı sabitlik Avropa üçün olduqca böyük önəm kəsb edir. Azərbaycanda müxtəlif dini icmaların nümayəndələri sülh şəraitində yaşayır və bu, ölkənin tolerant olmasından xəbər verir”, - deyən Sayyad Kərim bu gün Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşdüklərini qeyd edib. Vurğulayıb ki, bu görüş iclasımızda aparılan müzakirələr üçün çox gözəl zəmin yaradıb.

“Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan üçün prioritet məsələlərdəndir. Bu məsələ ölkəmizin müstəqilliyinin və suverenliyinin bərpa edildiyi vaxtdan gündəmdədir. Bu münasibətlər vaxtilə yardım əsasında başlanıbsa, biz indi qarşılıqlı faydalı əməkdaşlıqdan danışırıq və bunlar hər iki tərəfin marağındadır”, - deyən xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev Azərbaycan-Avropa İttifaqı arasında hərtərəfli sazişlə bağlı danışıqların hazırki vəziyyət barədə məlumat verib. Bildirib ki, tərəfdaşlıq və əməkdaşlıq sazişinin imzalanması, vizaların asanlaşdırılması, mobillik sahəsində tərəfdaşlığa dair müştərək bəyannamə və digər addımlar uğurlu əməkdaşlığa yol açıb. Azərbaycan hazırda Avropa İttifaqının Cənubi Qafqazda ən böyük ticarət tərəfdaşıdır. Qarşılıqlı hörmət və ortaq maraqlarla bağlı saziş tərəfdaşlığımızın strateji bünövrəsini formalaşdırır, amma yeni sazişin imzalanması da vacib məsələdir.

Mahmud Məmmədquliyev sazişlə bağlı görülən işlərdən danışaraq üç istiqaməti - siyasi təhlükəsizlik, ticarət və investisiya, sektoral məsələləri qeyd edib. Vurğulayıb ki, siyasi baxımından Azərbaycan üçün əsas məsələ qarşılıqlı öhdəliklərin əks etdirilməsidir. Bu, ümumi qaydada qəbul edilmiş beynəlxalq hüququn norma və prinsiplərinə hörmətlə yanaşılması deməkdir. Bu, bilavasitə beynəlxalq aləmdə tanınmış sərhədlərin etiraf edilməsi məsələsini özündə əks etdirir. Azərbaycan Respublikasının ərazi toxunulmazlığı təkcə Azərbaycan üçün deyil, Avropa İttifaqı üçün də mühüm məsələdir. Bu, həmçinin bütövlükdə regionun sabitliyi və inkişafı ilə bağlı məsələdir. Diqqəti Azərbaycanın işğal altındakı torpaqlarına, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə yönəldən nazir müavini deyib ki, həmin ərazilərdəki təbii sərvətlər, mal və xidmətlər Avropa İttifaqı ölkələrinin bazarlarına çıxarılır. Qurum beynəlxalq öhdəliklərə əsasən müvafiq qaydaların pozulmasına yol verməməlidir. Fərdi və hüquqi şəxslər tərəfindən Azərbaycanın ərazi bütövlüyünün pozulmasına şərait yaradılmamalıdır. Avropa İttifaqı ölkələrindən olan şirkətlər, onların filialları və törəmə şirkətləri Dağlıq Qarabağ və ətraf ərazilərdə fəaliyyət göstərməklə Azərbaycan qanunvericiliyini pozurlar. Nazir müavini bununla bağlı İşçi Qrupunun yaradılmasını və məsələnin hüquqi müstəvidə həllini tapmasını təklif edib.

Avropa Xarici Fəaliyyət Xidmətinin Avropa və Mərkəzi Asiya üzrə icraçı direktorunun müavini, Rusiya, Şərq tərəfdaşlığı, Mərkəzi Asiya və ATƏT üzrə direktor Lük DEVİN ötən 22 ildə Azərbaycanın çox dəyişdiyini, bu müddət ərzində qurumla Azərbaycan arasında münasibətlərin də çox dərinləşdiyini söyləyib. “Azərbaycan bizim strateji enerji tərəfdaşımız və Avropa İttifaqının qaz mənbələrinin şaxələndirilməsi, enerji təhlükəsizliyi üçün əhəmiyyətli olan “Cənub Qaz Dəhlizi” layihəsinin ən mühüm tərəfdaşıdır. Bu fakt Şuranın qərarı ilə də təsdiq edilib. Avropa İttifaqı olaraq biz, siyasi və coğrafi cəhətdən mürəkkəb bir regionda yerləşən dünyəvi dövlət və müsəlman ölkəsi olan Azərbaycandakı sabitliyi, onun regiondakı siyasi rolunu da yüksək qiymətləndiririk. Habelə Azərbaycanın dözümlülük və multikulturalizm sahəsindəki təcrübəsi də əhəmiyyətlidir. Avropa İttifaqı bu təcrübədən ciddi dərslər çıxara bilər”, - deyə Lük Devin qeyd edib.

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov iclasda çıxış edərək müsəlman Şərqində ilk parlamentli respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin bu ay tamam olacağını diqqətə çatdıraraq bildirib ki, 23 ay yaşayan bu dövlətin baniləri onu klassik Avropa demokratiyası tipində qurmaq və inkişaf etdirmək vəzifəsini qarşıya qoymuşdular. Lakin 1920-ci ilin aprelində bolşevik Rusiyasının hərbi müdaxiləsi nəticəsində Cümhuriyyətin mövcudluğuna son qoyuldu və Azərbaycan 70 il tamamilə fərqli ideoloji sistemdə yaşamağa məcbur edildi. Nəhayət, 1991-ci il oktyabrın 18-də Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdi. Lakin müstəqilliyin ilk illərində Ermənistanın Azərbaycana hərbi təcavüzü, qlobal geosiyasi amillərin təsiri altında cərəyan edən ictimai-siyasi proseslər, sosial-iqtisadi tənəzzül ölkədə ciddi böhran yaratmışdı. Belə bir şəraitdə xalqın tələbi ilə ümummilli lider Heydər Əliyev Azərbaycanın ali rəhbərliyinə gəldi və onun xidmətləri sayəsində ölkədə sabitlik bərqərar olundu, demokratik siyasi, humanist sosial münasibətlər sisteminə və liberal iqtisadiyyata keçid təmin edildi, müstəqil dövlətin ilk Konstitusiyası qəbul olundu. Bu ali sənəddə dövlət hakimiyyətinin təşkili, insan və vətəndaş hüquq və azadlıqlarının təminatı, habelə liberal iqtisadiyyatın yaradılmasının təməl prinsipləri təsbit olundu və praktiki fəaliyyət prosesində uğurla tətbiq edildi. Ulu öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin qəti mövqeyi ondan ibarətdir ki, müasir dövrdə siyasi plüralizm, liberal iqtisadi sistem və güclü vətəndaş cəmiyyəti Azərbaycanın dinamik inkişafını təmin edən başlıca amillərdir. Hazırda ölkədə 55 siyasi partiya, 3 mindən çox qeyri-hökumət təşkilatı (qeyri-kommersiya təşkilatları isə 4 mindən çoxdur), 5 mindən artıq kütləvi informasiya vasitəsi, habelə sıralarında 2 milyona yaxın insanı birləşdirən həmkarlar ittifaqları fəaliyyət göstərir.

Plüralizmin müasir Azərbaycan cəmiyyətinin səciyyəvi xüsusiyyətlərindən biri olduğunu diqqətə çatdıran Əli Həsənov ölkədə siyasi partiyaların sərbəst fəaliyyət göstərmələri üçün mükəmməl qanunvericilik bazasının yaradıldığını, partiyaların dövlət qeydiyyatına alınması ilə bağlı çox sadə tələblər müəyyənləşdirildiyini, onların fəaliyyətinin maliyyələşdirilməsi məqsədilə hər il dövlət büdcəsindən vəsait ayrıldığını vurğulayıb. Əli Həsənov bildirib ki, siyasi partiyalardan 40-dan çoxu mövcud hakimiyyətə müxalifət mövqeyində dayanır. 11 partiya, o cümlədən 7 müxalifət partiyası Milli Məclisdə təmsil olunur. Aprelin 11-də keçirilən prezident seçkilərində 6 partiyanın namizədi iştirak edib.

Ölkədə fəaliyyət göstərən vətəndaş cəmiyyəti institutlarının, o cümlədən qeyri-hökumət təşkilatlarının formalaşmasına və inkişafına daim ciddi önəm verildiyini söyləyən Prezidentin köməkçisi bildirib ki, hazırda Azərbaycan dövləti şuralar və fondlar vasitəsilə vətəndaş cəmiyyəti institutlarına yardım göstərir.

Azərbaycan dövlətinin vətəndaş cəmiyyəti ilə bağlı strateji hədəflərinin “Azərbaycan-2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında əksini tapdığını vurğulayan Əli Həsənov vətəndaş cəmiyyətinin inkişafı, dövlət orqanları ilə vətəndaş cəmiyyəti institutları arasında əməkdaşlığın təkmilləşdirilməsi istiqamətində bir sıra mühüm işlərin görüldüyünü diqqətə çatdırıb. “Elektron hökumət” portalının, “ASAN xidmət” mərkəzlərinin, “Fərdi elektron pəncərə” sisteminin fəaliyyətə başlaması, QHT-lərə Dövlət Dəstəyi Şurası yanında Hüquq və Monitorinq Komissiyasının, Açıq Hökumətin Təşviqinə dair Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platformasının yaradılması, qrantların verilməsi prosedurunda “bir pəncərə” prinsipinin tətbiqi bu istiqamətdə atılan mühüm addımlardır.

Azərbaycanda söz və məlumat azadlığının təmin olunması, demokratik, plüralist mətbuatın formalaşması, onun hüquqi-normativ bazasının qurulması, iqtisadi müstəqilliyinin təmin edilməsinin dövlət siyasətinin əsas istiqamətlərindən biri olduğunu diqqətə çatdıran Əli Həsənov bildirib ki, kütləvi informasiya vasitələrinin fəaliyyətini tənzimləyən qanunvericilik bazası təkmilləşdirilərək beynəlxalq standartlara uyğunlaşdırılıb. Azərbaycanda mətbuat üzərində senzura ləğv olunub, Mətbuat və İnformasiya Nazirliyinin fəaliyyəti dayandırılmaqla dövlətin mətbuat üzərində nəzarət funksiyasından imtina edilib. Prezidentin köməkçisi deyib: “Hazırda Azərbaycanın istənilən vətəndaşı müvafiq quruma xəbərdarlıq edərək media fəaliyyətinə başlaya bilər. Elektron media sahəsində işləmək üçün yalnız domen almaq tələb olunur. Ölkədə internet istifadəçilərinin sayı 80 faizi ötüb. 10 milyona yaxın əhalisi olan ölkədə 3 milyonadək sosial şəbəkə istifadəçisi var. Az.domenində qeydiyyatdan keçmiş internet saytlarının sayı 20 mini ötüb. KİV-lərin ümumi sayı isə 5 mini keçib. Azərbaycan Respublikasının Prezidenti yanında yaradılan Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsas vəzifəsi söz və məlumat azadlığının, kütləvi informasiya vasitələrinin inkişafı üçün əlverişli şərait yaratmaq, KİV-lərin proqram, layihə və digər tədbirlərini maliyyələşdirməkdir. Bu günədək Fond vasitəsilə KİV-lərə 40 milyon manata yaxın vəsait ayrılıb. Əlbəttə, qeyd edilənlər son hədd deyil. Azərbaycan Prezidenti İlham Əliyev hesab edir ki, ölkədə siyasi islahatlar davam etdirilməli, vətəndaş cəmiyyəti quruculuğu istiqamətində həyata keçirilən tədbirlər daha da gücləndirilməlidir”.

Respublikadakı hüquqi islahatlardan danışan deputat Çingiz Qənizadə isə bildirib ki, 1995-ci ildən başlayaraq ölkədə bu günədək 63 əfv fərmanı imzalanıb, 11 amnistiya aktı qəbul olunub. Bu, Azərbaycan dövlətinin humanizminin təntənəsidir. Həmin sənədlər 100 minlərlə insanı əhatə edib. Azərbaycanın bu sahədə gördüyü işlər nümunəvi xarakter daşıyır.

“Azərbaycanın neft-qaz sənayesinə xarici sərmayələrin, müasir texnologiyaların cəlb edilməsinin uğurlarının təməlində qanunvericilik, arbitraj prosedurları dayanır”, - deyən Milli Məclis sədrinin müavini Valeh Ələsgərov enerji və nəqliyyat sahəsində görülən işlərdən ətraflı söhbət açıb. Məlumat verib ki, hazırda rəhbəri olduğu işçi qrupu tərəfindən hazırlanan “Azad iqtisadi zonalar haqqında” yeni qanun layihəsi ikinci oxunuşda Milli Məclisdə qəbul olunub. Sənəd bu yaxınlarda üçüncü oxunuşda qəbul ediləcək. Bu qanun sərmayə qoymaq istəyən fiziki və hüquqi şəxslərin fəaliyyətinə kömək göstərəcək. Valeh Ələsgərov xatırladıb ki, neftlə bağlı birinci kontrakt imzalananda Azərbaycan Respublikasında xarici investorların qanuni hüquqlarını qoruyan qanunvericilik yox idi. Buna görə də tarixdə olmayan bir qərar verildi: Dövlət Neft Şirkəti ilə xarici şirkətlər arasında imzalanan hər bir kontrakt Azərbaycan Respublikasının Milli Məclisində qanun olaraq qəbul edildi. İclas işini mayın 8-də davam etdirəcək.

# Müstəqil Azərbaycan inkişaf yolunda əmin addımlarla irəliləyir

***Müasir müstəqil Azərbaycan inkişaf yolunda əmin addımlarla irəliləyir. Siyasi, sosial-iqtisadi, hüquqi və digər sahələrdə həyata keçirilən islahatlar və tədbirlər Azərbaycanın qüdrətini artırmaqla yanaşı, ölkəmizin beynəlxalq mövqeyini möhkəmləndirir, dinamik tərəqqinin davamlı olmasını təmin edir. Şübhəsiz ki, bütün bunların əsasında uğurlu inkişaf siyasəti dayanır. Bu siyasətin əsası Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulub.***



1991-ci ildə müstəqillik əldə edən Azərbaycan bir əsrdə ikinci dəfə müstəqilliyini itirmək təhlükəsi ilə qarşı-qarşıya idi və ölkəmizin yeganə xilas yolu sabitliyin, eləcə də iqtisadi inkişafın təmin olunmasıydı. Bunu isə yalnız güclü siyasi iradəyə malik olan xarizmatik, öz fəaliyyətində milli maraqları rəhbər tutan LİDER edə bilərdi. Məhz 1993-cü ildə Ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə gəlişindən sonra Azərbaycan xaos və tənəzzül burulğanından xilas oldu, dövlətimizin müstəqilliyinin itirilməsi təhlükəsi aradan qalxdı. Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı ən böyük və tarixi xidmətlərindən biri məhz dövlətimizin müstəqilliyinin qorunub saxlanması, Azərbaycanın yeni inkişaf perspektivlərinin yaradılması idi. Dövlətçilik ənənələrinin gücləndirilməsi üçün sistemli islahatların həyata keçirilməsi müstəqil Azərbaycanın ictimai, siyasi, iqtisadi və hüquqi dayaqlarını formalaşdırdı və möhkəmləndirdi. Ümummilli liderimiz Heydər Əliyevin həmin dövrdə irəli sürdüyü dövlətçilik konsepsiyası mahiyyət etibarilə Azərbaycanın tarixi ənənələrini və müasir Qərb dəyərlərini birləşdirən yeni bir inkişaf modeli kimi özünü doğrultdu. İctimai-siyasi sabitliyi və sosial-iqtisadi inkişafı bu modelin əsas dayağına çevirən Heydər Əliyev cəmiyyətdə dayanıqlı milli birliyə nail olmaq üçün, hər şeydən öncə, insan hüquq və azadlıqlarının təminatı məsələsinə xüsusi diqqət yetirdi. Ulu öndər Heydər Əliyev Azərbaycanda milli dövlətçiliyin prioritet inkişaf istiqamətlərini müəyyənləşdirərkən xalqın milli mentalitetinin səciyyəvi cəhətlərini də nəzərə aldı.

Nəticə etibarilə, Heydər Əliyev cəmiyyətin sivil inkişafını hər bir fərdin maraq və mənafelərinin etibarlı təminatında görərək bunun üçün bütün zəruri tədbirləri həyata keçirdi. Məhz Ulu öndərin gərgin səyləri nəticəsində hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə irəliləyən müstəqil respublikamızda vətəndaş cəmiyyətinin formalaşması, insanların azad, sərbəst yaşaması, qanunun aliliyinin təmin edilməsi üçün ən yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradıldı. Hüquqa və ədalətə söykənən vətəndaş cəmiyyətinin əsası qoyuldu, onun təkmilləşdirilməsi üçün fundamental islahatlar uğurla davam etdirildi. Ulu öndərimizin rəhbərliyi ilə hazırlanaraq 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxardı. Nəticədə Azərbaycanın siyasi-hüquqi sistemi təkmilləşdirildi və dövlətçiliyin əsaslarının gücləndirilməsi istiqamətində həyata keçirilən demokratik reformalar məhz hüquqi-normativ baza və ənənələr əsasında davam etdirildi. Demokratik dövlət modeli konsepsiyası uğurla həyata keçirildi, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu istiqamətində mühüm nəticələr və nailiyyətlər əldə olundu.

Ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrdə əldə edilən mühüm nailiyyətlərdən biri Azərbaycanın beynəlxalq nüfuzunun artırılması, regional və qlobal miqyasda mövqeyinin möhkəmləndirilməsi oldu. 1994-cü il sentyabrın 20-də tarixə "Əsrin müqaviləsi" kimi daxil olan neft müqaviləsinin imzalanması Azərbaycanın dünya dövlətləri ilə münasibətlərinin inkişafına və beynəlxalq iqtisadiyyata inteqrasiyasına təkan verdi. Ölkəmizin gələcəyinə inanan dövlətlər, şirkətlər ikitərəfli əlaqələrin qurulmasına və daha da genişlənməsinə səylər göstərdilər. Azərbaycan qısa zamanda tərəfdaşlıq məkanına çevrildi, ölkəmizlə əməkdaşlıq etmək istəyən dövlətlərin sayı artdı. Respublikamız, həmçinin beynəlxalq təşkilatlarda uğurla təmsil olunaraq həm ikitərəfli, çoxtərəfli münasibətlərin genişləndirməyə müvəffəq oldu, həm də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı reallıqları dünya ictimaiyyətinin diqqətinə çatdıra bildi.

Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlərindən biri ümumxalq partiyası olan Yeni Azərbaycan Partiyasının yaradılmasıdır. Həmin dövrdə Azərbaycanı düçar olduğu xaos və tənəzzüldən xilas etmək üçün ölkəmizin mili mənafeyini hər şeydən üstün tutan ziyalılar Ulu öndər Heydər Əliyevə müraciət etdi. 1992-ci il oktyabrın 16-da 91 nəfər ziyalının imzaladığı müraciətdə deyilirdi: "Dövlət quruculuğundakı çoxillik təcrübənizə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütlələrini özündə birləşdirə biləcək böyük, güclü, nüfuzlu və işlək partiya yarada bilərsiniz. Öz adımızdan və on minlərlə respublika vətəndaşı adından Sizdən xahiş edirik ki, təşəkkül tapan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir".

Ümummilli lider Heydər Əliyev ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi: "Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə partiya Azərbaycanın siyasi-ictimai həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər".

Tarixi zərurətdən yaranan Yeni Azərbaycan Partiyası Azərbaycan xalqının və dövlətinin xilasını təmin edən aparıcı qüvvəyə, hər bir azərbaycanlının partiyasına çevrildi. Yarandığı gündən YAP-ın Ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən və uğurla tətbiq edilən əsas proqram məramı Azərbaycanın dövlət müstəqilliyinin qorunub möhkəmləndirilməsindən, ərazi bütövlüyünün təmin edilməsindən, demokratik, hüquqi, dünyəvi cəmiyyət qurulmasından, əmin-amanlıq, ictimai-siyasi sabitlik, milli həmrəylik, güclü və sosialyönümlü iqtisadiyyat yaratmaqdan ibarət olub. Başqa sözlə, qələbələr partiyası olan YAP milli inkişafa xidmət edən vəzifələrin yerinə yetirilməsinə layiqli töhfəsini verib.

Beləliklə, Ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövr sabitlik və inkişaf dövrü kimi yadda qaldı. Azərbaycan güclü, qüdrətli dövlətə çevrildi, ölkəmizin beynəlxalq mövqeyi gücləndi və gələcək tərəqqinin təməli qoyuldu. Prezident İlham Əliyev Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə və Heydər Əliyev Fondunun fəaliyyətinin 13 illiyinə həsr olunan təntənəli mərasimdə çıxışı zamanı diqqətə çatdırıb ki, 1993-2003-cü illər sabitlik, inkişaf illəri olmuşdur: "Heydər Əliyev bir daha göstərdi ki, ən ağır, böhranlı vəziyyətdən çıxış yolu var. O da düşünülmüş siyasətdir, cəsarətdir, müstəqil siyasət və addımlardır".

Bu gün Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu inkişaf siyasəti Onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən müasir dövrün çağırışlarına uyğun olaraq uğurla davam etdirilir. Son 15 il ərzində reallaşdırılan məqsədyönlü siyasət sayəsində Azərbaycan bütün sahələrdə böyük uğurlara nail olub. Bəhs olunan dövrdə bütün dünyada iqtisadi cəhətdən Azərbaycan kimi dinamik inkişaf edən ölkələrin sayı çox az olub. Ötən müddət ərzində Azərbaycan iqtisadiyyatı 3,2 dəfə artıb ki, bu da dünyada ən yaxşı göstəricilərdən biri hesab olunur. Həyata keçirilən davamlı tədbirlər, aparılan məqsədyönlü islahatlar sayəsində bütün sahələrin inkişafı təmin olunub. Bunun nəticəsidir ki, Cənubi Qafqaz regionunun iqtisadiyyatının təxminən 70 faizi Azərbaycanın payına düşür.

Ulu öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasi kursun mühüm istiqamətlərindən birini müxtəlif sahələrdə çoxşaxəli və səmərəli islahatların həyata keçirilməsidir. İqtisadi, siyasi, hüquqi və digər istiqamətləri əhatə edən dərin islahatlar Azərbaycanın inkişafına, qüdrətinin artmasına xidmət etməklə yanaşı, həm də idarəetmənin sisteminin təkmilləşdirilməsinə mühüm töhfələr verib. Məhz 2016-cı il sentyabrın 26-da keçirilən ümumxalq səsverməsi - referendum da islahatlar kursunun tərkib hissəsini təşkil edir. Referendumun nəticələri həm də Azərbaycanda idarəetmə sisteminin təkmilləşməsinə əhəmiyyətli töhfələr verdi.

Xüsusilə də vitse-prezidentlik institutunun yaradılması yeni şəraitdə başlanan islahatların dairəsinin genişləndirilməsinə təkan verdi. Prezident İlham Əliyevin 2017-ci il 21 fevral tarixində imzaladığı müvafiq Sərəncama əsasən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilən Mehriban xanım Əliyeva yeni vəzifədə çalışdığı dövrdə öz həyat kredosuna sadiq qalaraq xalqın, ölkənin mənafeyi naminə uğurlu fəaliyyətini davam etdirir. Onun gördüyü işlər insanlarda böyük məmnunluq doğurur. Ümumiyyətlə, Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti kimi fəaliyyəti həm də ölkəmizdə yeni nəsil islahatların həyata keçirilməsi, vətəndaşlara dövlət diqqəti və qayğısının gücləndirilməsi, cəmiyyətin bütün təbəqələrini əhatə edən uğurlu sosial siyasətin davam etdirilməsi baxımından böyük önəmə malikdir.

Nəticə etibarilə, tərəqqinin milli modelini yaradan müstəqil Azərbaycan bu gün Ulu öndər Heydər Əliyevin ideyalarının işığında uğurla inkişaf edir. Əbədiyaşar liderin zəngin dövlətçilik irsi hər bir azərbaycanlı və bütövlükdə xalqımız tərəfindən yüksək qiymətləndirilir, Azərbaycanın uğurlu inkişaf yolunun təməlini təşkil edir. Azərbaycanın özü qədər əbədi olan Ümummilli liderimizin əziz xatirəsi Azərbaycan xalqı tərəfindən böyük minnətdarlıq hissi ilə yad edilir.

***Xatirə Əliyeva,***
***YAP Mətbuat Xidmətinin əməkdaşı, siyasi elmlər üzrə fəlsəfə doktoru***

# YAP-ın təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə "Heydər Əliyev" portretinin təqdimat mərasimi keçirilib

***Mayın 7-də Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə Azərbaycan xalqının Ümummilli lideri, Yeni Azərbaycan Partiyasının yaradıcısı Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə "Heydər Əliyev" portretinin təqdimat mərasimi keçirilib.***



Tədbir iştirakçıları əvvəlcə Fəxri xiyabana gələrək, xalqımızın Ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyublar. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə gül dəstələri düzülüb.

Konfransda dövlət və hökumət nümayəndələri, YAP İdarə Heyətinin və Siyasi Şurasının üzvləri, Milli Məclisin deputatları, elm və ictimai xadimlər iştirak ediblər.

Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini - İcra katibi Əli Əhmədov tədbirdə çıxış edərək Ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətlərindən danışıb, dahi rəhbərin anadan olmasının 95-ci ildönümünün respublikamızda və ölkəmizdən kənarda dərin hörmət və ehtiramla geniş qeyd olunduğunu vurğulayıb. O bildirib ki, Ulu öndər Heydər Əliyevin doğum gününün yüksək coşqu ilə qeyd olunması Azərbaycan xalqının dahi şəxsiyyətin ölkəmiz qarşısında xidmətlərinə verdiyi yüksək qiymətin, Onun xatirəsinə hörmət və ehtiramının təzahürüdür: "Azərbaycan xalqı hər zaman Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edəcək. Biz Ümummilli lideri təkcə doğum günü ərəfəsində xatırlamırıq, Onun əziz xatirəsi hər zaman qəlbimizdə yaşayır".









Əli Əhmədov qeyd edib ki, Ümummilli lider Heydər Əliyevin ideyaları daim yaşayacaq. Çünki bu ideyalar Azərbaycanın tərəqqisinin və yüksəlişinin əsasını təşkil edir: "Bu dövlət nə qədər yaşayacaqsa, hər zaman xalqımız bu dövlətin qurucusunu, Ümummilli liderimiz Heydər Əliyevi yad edəcək, Onun xatirəsini anacaq. Bu, artıq Azərbaycanda bir ənənəyə çevrilib və hesab edirəm ki, bu, bir dövlətçilik ənənəsidir. Dövlətin yaradıcısına xalqın etimadı Onun şəxsiyyətinə, xatirəsinə olan hörmət və ehtiramın ifadəsidir. Eyni zamanda, bu, xalqın öz dövlətinə olan ehtiramının ifadəsidir".

Əli Əhmədov deyib ki, Ümummilli liderin Azərbaycana rəhbərlik etdiyi illərdə görülən işlərə, xalqımızın həyatında baş verən əsaslı dəyişikliklərə nəzər salsaq, bu fikri təsdiqləyən kifayət qədər misallar tapa bilərik: "1969-cu ildə Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsindən sonra sanki gözlərimiz qarşısında iki Azərbaycan canlanır. 1969-cu ilə qədərki, özünə inanmayan, ümidsizlik məngənəsində sıxılan və demək olar ki, gələcəyə ümidlərini itirmiş Azərbaycan və 1969-cu ildən sonra Ulu öndərin həyata keçirdiyi islahatlar nəticəsində tamamilə dəyişən, özünə inamı artan, dinamik inkişaf yoluna çıxan və gələcəyinə inanan Azərbaycan. Tarix Heydər Əliyevə bu missiyasını ikinci dəfə həyata keçirmək şansı verdi. 1993-cü ilə qədərki və ondan sonrakı Azərbaycan gözlərimiz qarşısındadır. Bu iki Azərbaycan bir-birindən yerlə göy qədər fərqlənir. Xaos, anarxiya, ümidsizlik içərisində olan, dərin böhran keçirən Azərbaycanda

# YAP-ın təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə "Heydər Əliyev" portretinin təqdimat mərasimi keçirilib











məhz Ulu öndərin qətiyyətli islahatlar strategiyası nəticəsində əmin-amanlıq bərqərar oldu, dinamik inkişaf təmin edildi".

Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətlərindən danışarkən Baş nazirin müavini deyib ki, respublikamızın bütün guşələrində Ümummilli lider Heydər Əliyevin nişanələri, Onun zəhmətinin bəhrələri görünür. Azərbaycanın uğurlu inkişafı, məhz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasət nəticəsində təmin edilib. "Ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında xidmətləri o qədər böyükdür ki, Heydər Əliyevin xatirəsi hər gün, hər zaman anılır. Azərbaycanın ayrı-ayrı sahələrdə inkişafında Heydər Əliyevin nişanələri görünür. Azərbaycanın hər bir güşəsində Heydər Əliyevin izi görünür, hər bir sahənin inkişafında Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasət özünü göstərir. Bu gün Azərbaycan Heydər Əliyevin ideyaları əsasında uğurla, qürurla inkişaf edir. Heydər Əliyevin müəyyənləşdirdiyi siyasət, dəyərlər, strategiya Azərbaycan xalqına xidmət edir"- deyə, o vurğulayıb.

YAP Sədrinin müavini bildirib ki, Azərbaycanın bütün vətəndaşları Ulu öndər Heydər Əliyevin əziz xatirəsinə dərin ehtiram bəsləyir: "Gənclər onlara göstərilən diqqət və qayğıya görə, incəsənət xadimləri incəsənətə göstərdiyi diqqətə görə, digər nəsillər də başqa fəaliyyətlərə görə Heydər Əliyevin xatirəsinə dərin hörmətlərini ifadə edirlər".

Ulu öndərin mədəniyyət və incəsənətə də böyük qayğı göstərdiyini diqqətə çatdıran YAP Sədrinin müavini deyib ki, Azərbaycanın sənət adamları da Heydər Əliyevə həsr olunmuş əsərlər yaradırlar. Belə möhtəşəm əsərlərdən biri də Azərbaycanın Əməkdar rəssamı Sakit Məmmədovun yaratdığı "Heydər Əliyev" portretidir. Əli Əhmədov qeyd edib ki, bu əsər Ümummilli lider Heydər Əliyevin adına layiq bir əsərdir və möhtəşəm əsər kimi diqqəti cəlb edir.

Tədbirdə daha sonra Əməkdar memar, Dövlət mükafatı laureatı Rasim Əliyev çıxış edərək Ulu öndər Heydər Əliyevlə bağlı bağlı xatirələrini danışıb. Ulu öndər Heydər Əliyevin gənc yaşlarında memar olmaq arzusunda olduğunu deyən R.Əliyev söyləyib ki, tarix elə gətirdi ki, O, görkəmli dövlət xadimi, dahi şəxsiyyət kimi yetişdi. "Ulu öndər Heydər Əliyev kimi şəxsiyyətlər 1000 ildə bir dəfə yetişir. Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusudur. Bu dövlət Onun şah əsəridir. Burada təqdim olunan portret isə Heydər Əliyevin daxili aləminin tablosudur".

Daha sonra sənətkarlıq üzrə fəlsəfə doktoru Sevil Kərimova çıxış edərək Ümummilli lider Heydər Əliyevin mədəniyyət və incəsənət sahəsinə olan qayğısından bəhs edib. O, təqdim olunan portretin rəssam Sakit Məmmədovun yaradıcılıq nailiyyətlərinin parlaq zirvəsi olduğunu vurğulayıb.

Tədbirin sonunda Əməkdar rəssam Sakit Məmmədov çıxış edərək onun hazırladığı əsərə verilən yüksək qiymətə görə təşəkkürünü bildirib. "Ümummilli lider Heydər Əliyev hər zaman azərbaycanlı olduğu ilə fəxr edirdi. Mən də fəxr edirəm ki, məhz Heydər Əliyev kimi böyük şəxsiyyətin təmsil etdiyi xalqın nümayəndəsiyəm"- deyə, S.Məmmədov vurğulayıb.

Tədbir bədii hissə ilə işini davam etdirib.

# Heydər Əliyevin liderlik

## Ümummilli Liderin gələcəyə hesablanmış strategiyası Azərbaycanın

***Tarixə nəzər salsaq, görərik ki, xalqımızın dövlətçilik tarixində mürəkkəb mərhələlər çox olub. Lakin bütün təzyiqlərə, çətinliklərə rəğmən heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik arzularını, ənənələrini məhv edə bilməmişdir. Məhz bu reallıqlara söykənərək müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyev bildirmişdir: "Biz nadir bir dövlətçilik irsinin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan dövlətimizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır." Eyni zamanda, bu fikir də önə çəkilir ki, keçmişini sevən, bu günü ilə qürur duyan, gələcəyinə böyük ümidlərlə baxan xalqlar tarixin sərt və çətin sınaqlarından üzüağ çıxaraq, milli varlıqlarını qoruyurlar. Ümummilli Lider Heydər Əliyevin böyük və müqəddəs ideallarla qurub-yaratdığı Azərbaycan dövlətinin tarixən keçib gəldiyi yolun öyrənilməsi mütləqdir, bir çağırışdır.***



### Müstəqilliyin daha da möhkəmləndirilməsinə, əbədiliyinin təmin edilməsinə hesablanan şərəfli missiya

Ulu Öndər Heydər Əliyev hələ Azərbaycana rəhbərliyinin birinci dövründə ölkənin inkişafı istiqamətində gördüyü işlərlə, qəbul etdiyi qərarlarla, həyata keçirdiyi quruculuq tədbirləri ilə, ən əsası gələcəkdə Azərbaycanın müstəqilliyə qovuşacağını nəzərə alaraq atdığı digər məqsədyönlü addımları ilə özünün Ümummilli Lider obrazını yaratmış, tarix isə dahi şəxsiyyətin bu statusunu bütün mərhələlərdə qorumuşdur. Ulu Öndərin hakimiyyətinin birinci dövründə azərbaycanlıların müstəqil düşüncə ətrafında birləşməsi imkanları genişləndi. İllər boyu bu istiqamətdə formalaşdırılan potensial ötən əsrin sonlarına doğru müstəqil Azərbaycan dövlətinin yaranmasında təzahür etdi. Məhz buna görə də Azərbaycan tarixinin 1969-cu ildən bəri yaşanan dövrü əsasən Ulu Öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. Bir məqamı da xüsusi qeyd etmək lazımdır ki, indiki dövrdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, xarici siyasi və iqtisadi əlaqələrinin sistemli olaraq genişlənməsi və dünya iqtisadiyyatına daha dərin bir şəkildə inteqrasiya prosesi 1970-1980-ci illərdə Ulu Öndər Heydər Əliyev tərəfindən təməli qoyulmuş potensiala əsaslanır.

Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev Heydər Əliyev Fondunun fəaliyyətə başlamasının 5 illiyi münasibətilə təntənəli mərasimdə "Mənim siyasi və həyati dünyagörüşüm atamın təsiri altında formalaşmışdır" etirafını özündə əks etdirən çıxışında bu reallıqları da qeyd etmişdir ki, 1969-cu ilə qədər Azərbaycan haqqında heç sovet məkanında o qədər də çox məlumat yox idi. 1970-1980-ci illərin əvvəlləri Azərbaycanın intibah dövrü olmuşdur. Azərbaycan sürətlə inkişaf etdi və sovet məkanında qabaqcıl respublikalardan birinə çevrildi.

Həmin çıxışında bu məqam da qeyd edilir: "Biz deyəndə ki, Heydər Əliyev müstəqil Azərbaycanın qurucusudur, tam həqiqəti deyirik. Çünki formal olaraq müstəqillik 1991-ci ildə əldə edilsə də, bu müstəqillik yarımçıq idi. Azərbaycanın gələcəyi sual altında idi. Ölkənin müstəqilliyi əldən gedirdi. Azərbaycanın dövlət quruculuğu məhz 1993-cü ildən başlanmışdır."

Cənab Prezidentimiz İlham Əliyev bu reallıqların bütün dövrlər üçün aktual olduğunu qeyd edərək bildirir ki, Ulu Öndər Heydər Əliyev haqqında çoxlu kitablar, elmi əsərlər yazılıb, dəyərli fikirlər səslənib: "Bir şeyi əlavə edə bilərəm ki, ümummilli lider Heydər Əliyev bütün dövrlərdə sınaqlardan şərəflə çıxıb."

Ulu Öndərin Azərbaycana rəhbərliyinin birinci dövründə qoyulan təməlin 1993-cü ildə yenidən hakimiyyətə qayıdışından sonra möhkəmləndirilməsinin nəticəsidir ki, bu siyasəti hazırda təkmil islahatları ilə uğurla davam etdirən dövlətimizin başçısı İlham Əliyev müasir Azərbaycanı inkişaf etmiş ölkələr sırasında görmək hədəfini irəli sürərək, bu istiqamətdə bir-birindən mühüm addımlar atır. Müstəqilliyimizin üçüncü, yeni 2003-cü ildən başlanan dövrünə keçmədən bu günümüz üçün görülən işlərin miqyasına nəzər salıb, Heydər Əliyev şəxsiyyətinin böyüklüyünü, Vətəninə, xalqına, torpağına bağlılığını bir daha indiki və gələcək nəsillərə çatdırmaq hər birimizin vətəndaşlıq borcudur. Ümummilli Liderin anadan olmasının 95 illiyi ərəfəsində keçilən yola nəzər saldıqda dahi şəxsiyyətin aforizmə çevrilən bu fikrinin reallıqlara əsaslandığını bir daha görmüş oluruq: "Nə qədər ki Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam!"

Bu fikri də böyük fəxr hissi ilə qeyd edirik ki, Ümummilli Liderin 1969-1982-ci illərdəki fəaliyyəti böyük bir təcrübə xəzinəsi, dövlət idarəçiliyi akademiyasıdır. Bugünkü Azərbaycan məhz həmin dövrdə yaradılan möhkəm təməl üzərində inkişaf edir, uğurla addımlayır. Ölkənin hərtərəfli inkişafında iqtisadi amilə verilən önəm Ulu Öndər Heydər Əliyevin hakimiyyətinin hər iki dövrünün səciyyəvi xüsusiyyətidir. Hazırda beynəlxalq səviyyədə tez-tez səsləndirilən "Azərbaycanın iqtisadi inkişafı möcüzədir" fikri də məhz düşünülmüş və məqsədyönlü, gələcəyə hesablanmış bu siyasətin məhsuludur.

### Ulu Öndər Heydər Əliyev Naxçıvanı erməni işğalından qorudu

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Ulu Öndər Heydər Əliyevin gəlişini özlərinin məhvi hesab edən səriştəsiz iqtidar onun Bakıda yaşamasına imkan vermədi. Gözlənilən təhlükələrdən xilas olmağın bir yolu var idi: Naxçıvana getmək. İnsanların böyük etimadını qazanan Ulu Öndər Heydər Əliyev həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. O, 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Soveti Sədrinin müavini olmuşdur. Ulu Öndər Heydər Əliyevin Naxçıvanda yaşadığı illərə xronikal nəzər saldıqda aydın görünür ki, bu gün haqqında ürəkdolusu danışdığımız və ölkəmizin beynəlxalq aləmdə nüfuzunu yüksəldən yeniliklərin, islahatların təməli o çətin illərdə qoyulub.

Naxçıvan MR Ali Məclisinin Sədri kimi Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi islahatlar haqqında geniş danışmağa ehtiyac olmasa da, o illərdə baş verən hadisələrin xronikasına nəzər salmaqla dahi şəxsiyyətin xidmətləri barədə aydın təsəvvür yaratmaq mümkündür. Daim xalqının müstəqilliyi və azadlığı uğrunda çalışan bir fədakar vətəndaş kimi fəaliyyətinə də elə bu mərhələdən başlamışdı. Ulu Öndər Heydər Əliyev "Müstəqillik qədər çətin yol yoxdur. Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir" sözlərini real həyatda gerçəkləşdirdi. Naxçıvan MSSR-in adının dəyişdirilməsi, dövlət atributları sayılan Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının bərpası, himn və gerbi üçün müsabiqə keçirilməsi barədə qərarlar qəbul olunmuşdu. Uzaqgörən siyasətçi bildirirdi ki, azadlıq olmayan yerdə inkişaf, yenilik barədə danışmaq qeyri-mümkündür. 1990-cı ilin 20 Yanvar hadisələri törədiləndə Moskvadakı Azərbaycan nümayəndəliyinə gedərək qırğını müstəqil bir dövlətin suverenliyinə qarşı törədilmiş siyasi aksiya hesab edən Ulu Öndər Heydər Əliyev Naxçıvanda işləyərkən faciəyə siyasi qiymət verilməsini, günahkarların cəzalandırılmasını qəti tələb etmişdi. Ulu Öndərin Naxçıvandakı ən böyük xidmətlərindən biri diaspor fəaliyyətinin təməlini qoyan 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü barədə qərarın qəbuludur. Naxçıvanda olarkən bütün Azərbaycan üçün xidmətlərindən biri də respublikanın sərhədlərinin, Naxçıvanın ermənilər tərəfindən işğalının qarşısının alınmasına yönəldilmiş Qars müqaviləsinin təzələnməsi oldu. Blokadada qalan naxçıvanlıların çətin vəziyyətdən çıxması üçün qonşu İran və Türkiyə ilə əməkdaşlıq gücləndirildi. Böyük şəxsiyyət Heydər Əliyevin nüfuzu bu sahədə də özünü doğrultdu. Naxçıvana hər iki qonşu dövlətdən ərzaq, sənaye malları, ən başlıcası isə yanacaq, enerji verildi. Türkiyə ilə qonşu dövlətlər arasında əlaqələrin möhkəmləndirilməsi üçün "Ümid körpüsü" salındı. Paytaxt Bakı ilə yeganə nəqliyyat yolunun intensiv fəaliyyəti üçün geniş imkanlara malik hava limanı, Bakıda Naxçıvan nümayəndəliyi açıldı.

Ulu Öndərin Naxçıvandakı xidmətlərindən bəhs edərkən bu gün Azərbaycanın ictimai-siyasi həyatında aparıcı rol oynayan, ölkənin gələcəyinə böyük ümidlər vəd edən Yeni Azərbaycan Partiyasının yaradılmasını qeyd etməliyik. Təsis konfransını 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirən Yeni Azərbaycan Partiyasının yaradılması ilə bağlı 91 nəfər ziyalının Ulu Öndər Heydər Əliyevə müraciəti Azərbaycan xalqının böyük əksəriyyətinin istəyinin ifadəsi idi. Ümummilli Lider Heydər Əliyev müraciətə cavabı ilə bir daha xalqla birliyini, həmrəyliyini nümayiş etdirdi. Ulu Öndərin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyası ilk gündən milyonların sevgisini qazandı.

### Xalq öz xilaskarına sahib çıxdı

Ulu Öndər Heydər Əliyevin artıq ölkə hüdudlarını aşan şöhrətini gözü götürməyən, yeniliklərə siyasi qısqanclıqla yanaşan AXC-Müsavat iqtidarı təxribatlara əl atdı. Silahlı dəstələr təşkil etməklə Naxçıvanda dövlət çevrilişləri etmək istəyənlərin cəhdləri baş tutmadı. Bir neçə dövlət idarəsini və radio-televiziya şirkətinin binasını zəbt edərək külli miqdarda dövlət malını dağıtdılar. İnsanlara maddi və mənəvi ziyan vuruldu. Lakin çətinliklərə, silahlı dəstələrin hədələrinə əhəmiyyət verməyən naxçıvanlılar Bakıdan istiqamətləndirilən çevriliş cəhdlərinin

Ardı Səh. 11

Əvvəli Səh. 10

qarşısını Ulu Öndərin bir çağırışı ilə aldılar. Xalq öz xilaskarını canlı sipər çəkərək qorudu. Çünki Ulu Öndər Azərbaycan dövlətçiliyini qoruyan, xalqın sabaha inamını sönməyə qoymayan dahi şəxsiyyət idi. Bu birlik əsl xalq-iqtidar həmrəyliyi oldu.

Dahi Şəxsiyyət Heydər Əliyevin Azərbaycanın gələcəyi üçün müəyyənləşdirdiyi perspektivlərin reallaşması isə 1993-cü ildən, yəni xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra mümkün oldu. O, başladığı işlərin davamlılığını yüksək səviyyədə təmin etdi, bugünkü güclü, qüdrətli Azərbaycanın yeni-yeni hədəflərə çatması üçün ciddi səylər göstərdi. Azərbaycanın 27 ilə yaxın müstəqillik tarixində keçdiyi inkişaf yolunun təhlilini vermək hər zaman günümüzün tələbidir. Müstəqilliyimizin ilk illərində ölkəmizin hansı durumla üz-üzə qaldığı bəllidir. Ölkədə xaosun, anarxiyanın, özbaşınalığın baş alıb getməsi həmin dövrün xarakterik xüsusiyyəti idi. Həmin dövrün iqtidarının başı hakimiyyət uğrunda mübarizəyə qarışdığından torpaqlarımızın işğalı da davamlı hal almışdı. Müharibə şəraitində yaşayan ölkə üçün güclü ordunun olması vacib amillərdəndir. Lakin həmin dövrdə Silahlı Qüvvələr torpaqlarımızın deyil, ayrı-ayrı qrupların maraqlarının müdafiəsinə xidmət edirdi. Hər sahədə olduğu kimi, xarici siyasətdə də uğursuzluqlar geniş vüsət almışdı. Azərbaycan haqqında məlumatsızlıq, informasiya blokadasında olması erməni yalanlarının ayaq tutub yerimısinə geniş meydan açırdı. Ölkədə vətəndaş müharibəsinin dərinləşməsi Azərbaycanın parçalanmasını, bir dövlət olaraq dünya xəritəsindən silinməsini sürətləndirirdi. Belə bir ağır durumda xalq öz xilaskarını axtarırdı. Bu, təbii ki, bütün ömrünü xalqına, dövlətinə həsr hansı səviyyədə olduğunu nümayiş etdirdi. İllər keçdikcə yeni-yeni neft və qaz sazişlərinə imza atıldı, Azərbaycan malik olduğu təbii enerji resurslarından səmərəli istifadə etməklə hərtərəfli inkişafını təmin etdi. Ümummilli Lider Heydər Əliyevin 1999-cu ildə böyük uzaqgörənliklə yaratdığı Azərbaycan Respublikası Dövlət Neft Fondu neft gəlirlərinin idarə olunmasında şəffaflığın təminatında əhəmiyyətli rol oynayır. Belə ki, hazırda aktivlərinin həcmi 36 milyard dollardan artıq olan Dövlət Neft Fondunun vəsaitləri hesabına mühüm sosial-iqtisadi layihələr həyata keçirilir ki, onlar da öz növbəsində ölkəmizin hərtərəfli inkişafını təmin edir.

## Müstəqillik yolunda ilk addımlarını atan dövlətin beynəlxalq aləmdə varlığını təsdiqləməsi əsasdır

Ulu Öndər Heydər Əliyev bu tezisi irəli sürməklə iki və çoxtərəfli çərçivədə əlaqələrin qurulmasına, diaspor quruculuğu prosesinə xüsusi diqqət yönəltdi. Onun elə bir ölkəyə səfəri yox idi ki, Azərbaycan həqiqətlərini, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətini faktlar əsasında dünya ictimaiyyətinin diqqətinə çatdırmasın. Dünyanın müxtəlif ölkələrinə səpələnmiş soydaşlarımızın bir amal - azərbaycançılıq ideyası ətrafında sıx birləşməsi vacib amil kimi önə çəkilirdi.

Qeyd etdiyimiz kimi, azərbaycançılığın əsas tərkib hissəsi olan Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün əsası 1991-ci ilin 16 dekabrında qoyulub. O illərdə Naxçıvan MR Ali Məclisinin Sədri olan Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq, dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etmişdi. Ulu Öndərin 1993-cü ildə hakimiyyətə qayıdışından sonrakı dövrdə də fəaliyyətinin əsas istiqamətlərindən biri diaspor quruculuğu, dünya azərbaycanlılarının birliyinin, həmrəyliyinin təmin edilməsi oldu. Ayrı-ayrı ölkələrdə Azərbaycan cəmiyyətlərinin, mərkəzlərinin yaradılmasına nail olan ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci ildə Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi bu birliyə, həmrəyliyə böyük töhfə oldu. Artıq vahid mərkəzdən idarəedilmə uğurların davamlılığına yol açdı, soydaşlarımızın yaşadıqları ölkələrdə fəallıqlarını, Azərbaycanın daha da qüdrətlənməsinə, çiçəklənməsinə töhfələrini artırdı. Beş ildən bir ənənəvi keçirilən dünya azərbaycanlılarının qurultayları yeni-yeni vəzifələrin müəyyənləşdirilməsində əhəmiyyətli rol oynayır. Qurultaylarda ötən beş ildə keçilən yola baxış fonunda qarşıya qoyulan vəzifələrin hansı şəkildə yerinə yetirildiyi təhlil edilir. Heydər Əliyev məktəbinin layiqli davamçısı ölkə Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, güclü, qüdrətli Azərbaycan hər birimizin qürur mənbəyidir. Bu birlik, həmrəylik yeganə problemimiz olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllində vacib amildir. Azərbaycan diplomatiyasının səyləri sayəsində erməni yalanları faktlar əsasında dünya ictimaiyyətinin diqqətinə çatdırılır, Ermənistanın işğalçılıq siyasəti pislənilir.

O da məlumdur ki, erməni diasporunun yalan təbliğatları əsasında Amerika Birləşmiş Ştatları Konqresi 1992-ci ildə Azərbaycana qarşı ədalətsiz "907-ci düzəlişi" tətbiq etmişdir. Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qaydışından sonra fəaliyyətinin əsas tərkib hissəsi bu qərarın ədalətsizliyini təsdiqləmək, ləğvinə nail olmaq idi. Məhz uğurlu daxili və xarici siyasətin nəticəsi olaraq, həmçinin 2001-ci ilin sentyabrında ABŞ-da baş verən terror aktından sonra ABŞ hökuməti qərarın ədalətsizliyini etiraf etdi, fəaliyyətinin bir illik dondurulması ilə bağlı qərar qəbul etdi. Artıq o vaxtdan hər il həmin qərar yenidən təsdiqlənir.

Ulu Öndər tarixin saxtalaşdırılmasına sərt mövqeyini də bəyan edib. Onun ilk görüşünü ziyalılarla keçirməsi də təsadüfi deyildi. Dahi şəxsiyyət həmin görüşündə tarixçilərimizin qarşısında bir sıra mühüm vəzifələr qoymuşdur ki, bunlardan da ən ümdəsi tarixin saxtalaşdırılmasına yol verilməməsi, tarixi araşdırmaların miqyasının genişləndirilməsi, Dağlıq Qarabağ həqiqətləri ilə bağlı kitabların çap edilməsi idi. Baxmayaraq ki, ermənilər özlərinə saxta tarix yazıb həqiqətləri inkar etməyə cəhd göstərirlər, onlar daim fakt qarşısında acizdirlər. Təbii ki, təbliğat tarixi faktlara, həqiqətlərə əsaslananda daha inandırıcı, uzunömürlü olur. Ulu Öndər Heydər Əliyev siyasi kursunu hər sahədə uğurla davam etdirən dövlətimizin başçısı İlham Əliyev daim bu sahəni də diqqətdə saxlayır, tarixçilərimizə öz tövsiyələrini çatdırır.

Şübhəsiz ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövləti, xalqı qarşısındakı xidmətlərini bir yazı çərçivəsində əhatə etmək mümkün deyil. Bugünkü Azərbaycan Ümummilli Liderin xidmətlərinin miqyasının nə qədər geniş olduğunu nümayiş etdirir. Böyük fəxr hissi ilə qeyd edirik ki, müstəqil Azərbaycan Ulu Öndərin şah əsəridir.

# fəlsəfəsinə müasir baxış

*dünya siyasətində yerini və rolunu müəyyənləşdirdi*

edən Heydər Əliyev idi. Əbəs yerə 15 iyun 1993-cü il Azərbaycanın milli dövlətçilik tarixinə qızıl hərflərlə Milli Qurtuluş Günü kimi yazılmadı. Azərbaycan xaosdan, anarxiyadan, özbaşınalıqdan, iqtisadi böhrandan xilas oldu, müstəqilliyimizin daimiliyi, əbədiliyi təmin edildi.

## İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir

Uğurlu daxili siyasəti nəticəsində ölkədə ictimai-siyasi sabitliyin yaradılması əlverişli biznes mühitinin formalaşdırılmasını təmin etdi. Azərbaycan qısa müddətdə böyük investisiyalar məkanına çevrildi. Ölkəmizə inam artdı, iqtisadi əlaqələrin qurulmasında maraqlı olan dövlətlərin, şirkətlərin təreddüdlərinə son qoyuldu. Dahi şəxsiyyət Heydər Əliyevin gərgin səyləri nəticəsində 1994-cü il mayın 12-də Ermənistanla atəşkəs sazişi imzalandı. Düşünülmüş və gələcəyə hesablanmış siyasətin uğurlu nəticələrini görən xalqımızın sabaha ümidləri daha da artdı, insanlar Ümummilli Liderin ətrafında daha sıx birləşərək Azərbaycanın daha da qüdrətlənməsinə, çiçəklənməsinə səy göstərdilər.

Hər bir ölkənin iqtisadi inkişafında qarşılıqlı əməkdaşlığın, təcrübə mübadiləsinin, səylərin birləşdirilməsinin rolunu xüsusi vurğulayan Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə 1994-cü il sentyabrın 20-də tarixə "Əsrin müqaviləsi" kimi daxil olan neft sazişi imzalandı. Bu, bir daha ölkəmizə inamın

## Azərbaycan demokratik ölkə kimi dünyada nüfuz qazandı

"Respublikamızda hüquqi dövlət qurulması, demokratik, sivilizasiyalı cəmiyyət yaradılması, insan azadlığının, söz, vicdan azadlığının, müasir plüralizmin təmin edilməsi, çoxpartiyalı sistemin bərqərar olması bizim əvvəldən qəbul etdiyimiz prinsiplərdir." Ümummilli Lider Heydər Əliyev bu tezisi ilə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolunda ilk addımlarını irəliləyən Azərbaycanın hədəflərini açıqlayaraq, demokratik cəmiyyətin varlığını təsdiqləyən bütün atributların ölkəmizdə bərqərar olması istiqamətində ciddi addımlar atdı. Məhz bu addımlar Azərbaycanın 2001-ci ilin yanvarında Avropa Şurasına tamhüquqlu üzv qəbul olunmasına yol açdı və bir daha dünyaya bəyan edildi ki, Azərbaycan demokratik prinsiplərə sadiqliyini sözdə deyil, əməldə təsdiqləyir.

İnsan hüquq və azadlıqlarının qorunması, azad mətbuatın inkişafı, çoxpartiyalı sistemin yaradılması, seçkilərin demokratik, beynəlxalq standartlara uyğun keçirilməsi istiqamətində atılan addımların uğurlu nəticələri göz önündədir. 1995-ci il noyabrın 12-də Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə yaradılan komissiya tərəfindən işlənib hazırlanmış və ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Milli Konstitusiyamızda əksini tapan maddələrin üçdə iki hissəsi insan hüquq və azadlıqlarının qorunmasına xidmət edir. Cəmiyyətin güzgüsü kimi dəyərləndirilən azad mətbuatın inkişafına göstərilən diqqətin bariz nümunəsi kimi senzuranın ləğvini xüsusi qeyd etməliyik.

Ümummilli Liderin bu addımı ilə mətbuatın inkişafında yeni bir mərhələnin təməli qoyuldu. KİV-in maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində atılan addımlar davamlılığı ilə diqqət çəkdi. Bu diqqət və qayğı 2002-ci ildə Ulu Öndərin "Jurnalistlərin dostu" mükafatına layiq görülməsini şərtləndirdi.

Demokratik cəmiyyətin atributlarından biri kimi siyasi partiyaların, ictimai birliklərin normal fəaliyyəti üçün lazımi şərait yaradıldı. Ulu Öndər Heydər Əliyev bildirirdi ki, nə qədər partiya olur olsun, onların hamısı bir məqsədə - Azərbaycanın müstəqilliyini qorumaq, torpaqlarımızı düşməndən azad etmək işinə xidmət etməlidir.

Hər bir ölkənin mütərəqqi inkişafının əsası kimi dəyərləndirilən seçkilərin demokratikliyinin təmin edilməsi istiqamətində də atılan da təqdirəlayiqdir. Belə ki, 2003-cü ilin mayında qəbul olunan Seçki Məcəlləsi ölkəmizdə prezident, parlament və bələdiyyə seçkilərinin, eyni zamanda, ümumxalq səsverməsinin (referendumun) demokratik, şəffaf və azad keçirilməsini şərtləndirir.

Ümummilli Lider bunları ümumiləşdirərək bildirirdi ki, müstəqil Azərbaycan dövləti sözün tam mənasında azadlıq və demokratiya prinsipləri əsasında demokratik cəmiyyət qurur. Siyasi və iqtisadi islahatların paralel şəkildə aparılması uğurlara yol açan əsas amillərdəndir.

## Heydər Əliyev yolu Azərbaycanı dünyanın xoşbəxt ölkələri sırasına daxil etdi

2003-cü ildən başlanan yol Azərbaycan tarixinə Böyük Yolun davamı kimi daxil oldu. Heydər Əliyev siyasi kursunun layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyev hər sahədə atdığı addımları ilə bu siyasətə sadiqliyini nümayiş etdirir. 2003-cü ildə keçirilən andiçmə mərasimində verdiyi ilk vədi də bu olmuşdur: "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir." İllər keçdikcə görülən işlərin miqyası, Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzu, ölkəmizin beynəlxalq tədbirlər üçün ideal məkan kimi qəbul olunması, ən əsası dünyanın inkişafın Azərbaycan modelindən bəhs etməsi bu vədin konkret əməli işdə təsdiqini tapdığını nümayiş etdirdi. Bu uğurlar cənab İlham Əliyevin 2008, 2013 və 2018-ci illər prezident seçkilərində qələbəsini şərtləndirdi. Cənab İlham Əliyev hər bir çıxışında xalqa arxalandığını bəyan etməklə, bu fikri bildirir ki, irəli sürülən təşəbbüslərin xalq tərəfindən dəstəklənməsi ona daha böyük güc verir, yeni-yeni hədəflərin müəyyənləşdirilməsində stimulverici amildir. Dövlətimizin başçısı İlham Əliyev neft siyasətinin məntiqi davamı kimi qeyri-neft sektorunun inkişafının vacibliyini irəli sürdü və bu istiqamətdə davamlı addımlar atdı. Regionların potensial imkanlarından səmərəli istifadə etmək məqsədilə təsdiqlənən dövlət proqramlarının uğurlu icrası qarşıya qoyulan məqsədlərə geniş yol açdı. İqtisadi tərəqqi güclü sosial siyasətlə tamamlandı. Azərbaycan özünü dünyaya sosial dövlət kimi təqdim etdi.

(Ardı növbəti sayımızda)

***Vüqar Rəhimzadə,***
***YAP Siyasi Şurasının üzvü,***
***"İki sahil" qəzetinin baş redaktoru,***
***Əməkdar jurnalist***

# Şuşanın işğal tarixindən 26 il ötür

***Tarixi zənginliyi, əsrarəngiz təbiəti ilə seçilən, xalqın mədəniyyətinin, musiqisinin beşiyi sayılan, Azərbaycan torpaqlarının əbədi və ayrılmaz parçası, böyük alimlərin, bəstəkarların, şairlərin vətəni olan, "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Zaqafqaziyanın konservatoriyası" adlandırılan Şuşanın işğal tarixindən 26 il ötür. 1992-ci ilin 8 may tarixində təcavüzkar Ermənistan tərəfindən işğala məruz qalan Şuşanın işğal tarixini XXI yüziillikdə bəşəriyyətin sivil dəyərlərinin yaşadığı zamanda qeyd edirik.***




Bu gün yadlar tapdağında olan Şuşa sükuta qərq olub. Bu sükutu yaşadan isə köçəri, yersiz, tarixsiz ermənilərin olması heyrət doğurmaya bilməz. Bu gün qapıları üzümüzə bağlı olan Şuşa həsrət dolu baxışlarla öz əsil-nəcabətli, tarix boyu burada yaşayıb və bu məkanı qurub-yaradan insanların yolunu gözləyir. O insanların ki, qəhrəmanlıq, igidlik və qeyrət tarixini torpağa qanları ilə həkk ediblər. Tarix yazılır və zaman-zaman oxunur. Əgər bu tariximizi yazmayıb unutsaydıq, sözsüz ki, erməni xəyanətinin nəticəsi kimi Şuşa kimi möhtəşəm şəhərin XX əsrdə 3 dəfə erməni təcavüzünün qurbanı olduğunu bilməzdik. Ötən əsrin əvvəli 1905-1907-ci illərdə Şuşa şəhəri ermənilər tərəfindən hücuma məruz qaldı və yandırıldı. 1920-ci ildə şəhərin xeyli hissəsi ermənilər tərəfindən dağıdıldı. 3-cü dəfə 1992-ci ilin mayında ermənilər bu şəhəri tamamilə işğal etdilər.

Heç kəsin Şuşanın işğalını təsəvvürünə gətirmədiyi halda, Şuşanın işğalına gedən yol Meşəlidən, Kərkicahandan, Malıbəylidən, Quşçulardan və Xocalıdan keçdi. Şuşa 1992-il mayın 8-də erməni və rus hərbi birləşmələri tərəfindən işğal edildi. Tarixin bu yaddaş səhifəsini hər bir azərbaycanlı yaddaşına həkk etməlidir. İşğal zamanı 1860 azərbaycanlı yaralandı, 480-i həlak oldu, 22 min nəfər öz yurdundan didərgin düşdü. Əsir götürülmüş 68 soydaşımızın taleyi barədə bu günə qədər məlumat yoxdur. Şuşanın işğalı zamanı yerli əhalinin 193 nəfəri şəhid, 102 nəfəri isə əlil oldu.

Şuşa şəhərində azərbaycanlıların tarixi izlərini silmək məqsədilə vandallar 600-ə yaxın tarixi-memarlıq abidəsini, o cümlədən, Pənahəli xanın sarayını, Cümə məscidini, Aşağı Gövhər Ağa məscidi, Xurşid Banu Natəvanın evini, Molla Pənah Vaqifin məqbərəsini yerlə-yeksan etmiş, 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, orta ixtisas musiqi məktəbini, 8 mədəniyyət evini, 22 klubu, 31 kitabxananı, 2 kinoteatrı, 8 muzeyi, o cümlədən, Şuşa Tarix Muzeyi, Dövlət Xalça Muzeyinin filialı və Xalq Tətbiqi Sənəti Muzeyi, Qarabağ Dövlət Tarix Muzeyi, turist bazasını, Qafqazda yeganə Şərq musiqi alətləri fabrikini dağıtmış, buradakı nadir sənət incilərini talayıb və məhv ediblər. Ermənilər insanlığa sığmayan vəhşiliyə də əl atıblar: Üzeyir Hacıbəyli, Bülbül və Natəvan kimi tarixi şəxsiyyətlərin heykəllərini belə güllələyiblər.

Şəhərin tarixi muzeyinin 5 minədək əşyası, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi Şuşa filialı, Dövlət Qarabağ Tarixi Muzeyinin 1000-dək əşyası, professional Azərbaycan musiqisinin banisi, bəstəkar Üzeyir Hacıbəylinin (300-dən çox əşya), vokal sənətimizin əsasını qoymuş böyük müğənni Bülbülün (400-dək əşya), görkəmli musiqici və rəssam Mir Mövsüm Nəvvabın (100-dən çox əşya) xatirə muzeylərinin fondları qarət edilib. İşğal olunmuş ərazilərdə erməni işğalçılarının özbaşınalığı, tarix və mədəniyyət abidələrimizin dağıdılması və qəsdən korlanması "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasına, "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" YUNESKO-nun 1972-ci il konvensiyasına ziddir.

Bu, Şuşanın bugünü və keçmişi ilə bağlı olan tarixindən kiçik bir səhifədir. Böyük tarixə yeni saxta tarix yazmaq elə də asan deyil. Bu böyük tarixdə bir güc var, qəhrəmanlıq var. Şuşa müqəddəs bir şəhərdir. Bu işğal tarixi müvəqqətidir. Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasət, ölkənin gücü, iqtisadi inkişafı, dünya birliyində yeri və milli ordusu şuşalıları Şuşaya qaytaracaq.

Ümummilli Lider Heydər Əliyevin vurğuladığı kimi, "Şuşasız, Ağdamsız, ümumiyyətlə, Qarabağsız Azərbaycan yoxdur". Bunun başqa bir yolu yoxdur. Ermənilər Şuşanı müvəqqəti işğal etsələr də, kəndlərinə yalançı adlar qoyub, özünküləşdirməyə cəhd etsələr də, bu, utopiya olaraq qalacaq. Zaman ən böyük hakimdir. Ümummilli Lider Heydər Əliyev işğal altında olan torpaqlarımızın sülh yolu ilə azad edilməsinə çalışmışdır. Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu siyasəti ardıcıl və geniş şəkildə davam etdirir. Erməni işğalının və müharibə vəziyyətinin davam etdiyini nəzərə alan Azərbaycan dövləti öz ordusunun gücünü, hərbi kadrların peşəkarlıq səviyyəsini durmadan artırır, hərbi qüdrətini yüksəldir. Qafqazda ən müasir ordu hesab olunan Azərbaycan Milli Ordusu Hərbi-Hava Qüvvələri və Hava Hücumundan Müdafiə, Hərbi-Dəniz Donanması və Quru Qoşunlarından ibarətdir. Bu qoşun növləri potensial rəqiblə qırıcı və bombardmançı təyyarələrlə effektiv mübarizə aparmaq gücündədir. MDB çərçivəsində Azərbaycan Hava Hücumundan Müdafiə Qüvvələrinə malik ən güclü ölkələrdən sayılır. Azərbaycan Prezidenti İlham Əliyevin "Bu gün Azərbaycan Ordusunda olan texnika ən güclü ordulardan da geri qalmır" - fikrini ifadə etməsi, məhz bu gerçəkliklərdən qaynaqlanır. Azərbaycan tərəfi açıq bəyan edib ki, sülh danışıqları nəticə verməzsə, münaqişə hərb yolu ilə həll ediləcəkdir.

Azərbaycan tarixinə yazılan aprel döyüşləri Azərbaycan Ordusunun gücünü ortaya qoymuş oldu. Ermənilərin törətdikləri təxribatların qarşısının alınması zamanı Azərbaycan əsgəri düşmənə ərazilərimizə qarşı hərbi təcavüz siyasətinin davam etdirildiyi illərin ən sərt cavabını verərək, ən ağır zərbəsini vurdu. Azərbaycanın getdikcə artan qüdrətini və gücünü düşmən qovulduğu yüksəkliklərlə və verdiyi təlafatlarla gördü.

İndi Azərbaycan dünya səviyyəsində böyük hörmətə malik olan ölkə kimi tanınır. Azərbaycanın iqtisadi potensialı və hərbi gücü, onu deməyə əsas verir ki, işğal altında olan torpaqlarımızın azad olacağı gün uzaqda deyil. Bu, qaçılmaz reallıqdır. "Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir, bütün köçkünlər öz doğma torpaqlarına qayıtmalıdırlar" - deyən Prezidentin bu fikirləri Azərbaycan həqiqətlərinə söykənir: "Biz bu illər ərzində böyük dərəcədə güclənmişik. Biz güclü hərbi potensial yaratmışıq. Bundan sonra, növbəti illərdə Ermənistan ilə Azərbaycan arasındakı fərq ancaq böyüyəcəkdir. Bu fərq hər yerdə özünü göstərir - iqtisadiyyatda, ölkələrimizin siyasi çəkisində, beynəlxalq dəstəkdə, hərbi potensialda və eyni zamanda, demoqrafik göstəricilərdə".

Erməni faşistləri zəbt etdikləri torpaqlarımızı, şəhərlərimizi, o cümlədən, doğma Şuşamızı sülh yolu ilə tərk etməsələr, Azərbaycan xalqı və onun rəşadətli ordusu düşməni məhv edərək, öz torpaqlarını azad edəcəkdir. Azərbaycan Prezidenti İlham Əliyev işğal altında olan torpaqlarımızın geri qaytarılacağını çıxışlarında əminliklə qeyd edir: "Bizim orduda xidmət edən gənclərimiz vətəni ləyaqətlə qoruyurlar və düşmənə çox güclü zərbələr vururlar. Belə də olmalıdır, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və bütün cəmiyyətin diqqəti bu məqsədə yönəlib. Cəmiyyətdə müşahidə olunan həmrəylik və səfərbərlik bizim qələbəmizi şərtləndirən amillərdən biridir, iqtisadi və hərbi gücüdür. Biz istənilən yolla öz ərazi bütövlüyümüzü bərpa edəcəyik".

Bəli, bu gün Azərbaycanın güclü və müasir ordusu vardır. Azərbaycan Ordusu qarşıda duran bütün vəzifələri həll etməyə qadir olan bir ordudur və heç şübhəsiz ki, belə gücə malik nizami ordu işğal altındakı torpaqlarımızı erməni təcavüzkarlarından təmizləməyə və üçrəngli bayrağımızı Dağlıq Qarabağda dalğalandırmağa qadirdir. Bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi müdrik siyasət nəticəsində, gündəngünə daha da möhkəmlənir və döyüş qabiliyyətini artırır. Dövlətimizin diqqət və qayğısını, xalqın dayağını daim öz üzərində hiss edən hərbçilərimizin isə döyüş ruhu birə-beş artıb.

Təbii ki, işğal altında olan torpaqlarımız işğalçılardan azad ediləndən sonra, bütün torpaqlarda, o cümlədən, Şuşada yeni inkişaf dövrü yaşanılacaq.

***Nəzakət ƏLƏDDİNQIZI***



**Təhmasib Novruzov**

## Alınmaz qalanı necə aldılar?

***Şuşa Azərbaycan tarixində alınmaz qala imici ilə tanınmışdı. Bu da təsadüfi deyil. XVIII əsrdə Qarabağ xanlığı tərəfindən möhtəşəm qala divarları ilə əzəmətli müdafiə sistemi yaradılan bu qədim şəhər, həm də dəniz səviyyəsindən 2000 metrdən artıq yüksəklikdə yerləşməsi ilə alınmazlıq imici qazanmışdı. Bəs necə oldu ki, əsrlərcə bu imici qazanmış və onu qoruyub-saxlamış şəhər bir gecədə düşmənlərin əlinə keçdi. Şah Qacarın da məğlub edə bilmədiyi qalanı əsli-kökü olmayan, hünəri hünərimizdən, mənəviyyatı mənəviyyatımızdan qat-qat aşağı olan dığaların "qələbə"si nə ilə bağlı oldu?***

Bəzən daxilimizdə olan xəyanətlərdən, bir az yumşaq desək, bacarıqsızlıqlardan fikir səsləndirəndə bizi içimizdə düşmən axtarmaqda qınayanlar da olur. Ancaq bu bir həqiqətdir ki, döyüşlərdə məğlubiyyətlərimizin səbəbi heç də düşmənin bizdən güclü, bizdən döyüşkən olması deyil. Erməni düşməndi və onun məqsədi torpaqlarımızı işğal etməkdən, "böyük dövlət" xülyalarını gerçəkləşdirməkdən, bu yurdun qədim sakinlərinin qanını tökməkdən, sağ qalanları isə pərən-pərən salmaqdan ibarətdir. Bu baxımdan, düşmənin etdiklərindən daha çox bizim etdiklərimizi və ya etməli olub etmədiklərimizi təhlil edib də, səhvlərimizi, yanlışlarımızı təkrar-təkrar önə çəkmək gərəkdir ki, sonrakı dönəmlərdə bu səhvləri təkrar etməyək. İlk növbədə, ondan danışmaq lazımdır ki, yenicə müstəqilliyini əldə etmiş bir ölkədə hərbi sahədə böyük uğurlar qazanmış, general rütbəsinə qədər yüksəlmiş Valeh Bərşadlı müdafiə naziri vəzifəsindən niyə uzaqlaşdırıldı? Hərbi mütəxəssisin yerinə nədən adi riyaziyyat müəllimi təyin edildi? Ölkəni xaosa sürükləyən o zamankı AXC başbilənləri nədən bunu istədilər? Cavab sadədir. Onları Qarabağda baş verənlər deyil, hakimiyyəti ələ almaq maraqlandırırdı. Hakimiyyəti ələ almaq üçün isə ən böyük güc strukturu olan Müdafiə Nazirliyini ələ keçirib, cəbhədə baş verənləri nəzarətinə götürmək, bu struktur vasitəsilə lazım gəldikdə, məğlubiyyətə yol açmaq, iqtidarı xalqın gözündən salmaq, etimadsızlıq yaratmaq ən "uğurlu" gediş idi. Mətbuatda dəfələrlə səsləndirilib və oxucularımıza məlumdur ki, Kərkicahandan başlayan, Xocalı və Qaradağlı qətliamlarına qədər uzanan məğlubiyyətlərdə o zamankı hakimiyyətlə yanaşı, hakimiyyət ehtirası ilə tutuşub yanan AXC fəallarının da "əməyi" kifayət qədər olmuşdur. Məhz hərb elmindən bixəbər, "Lefortovo"da sovet ideoloqlarına baş endirmiş bir məxluqun müharibə gedən ölkədə müdafiə naziri postuna gətirilməsi də bu çirkin niyyətin reallaşması istəyindən irəli gəlirdi. Düşmənin may ayının 9-da Şuşada parad keçirəcəyi haqqında əldə olunan səhih məlumatların ölkənin bütün səlahiyyət sahiblərinə, o cümlədən, Müdafiə Nazirliyinə bir həftə əvvəl çatdırılmasına baxmayaraq, bunun qarşısını almaq üçün heç bir tədbir görülməməsi, əksinə, şəhərdəki qüvvələri pərən-pərən salması dediklərimizi sübut edən faktdır. Nəticədə, hakimiyyətə gəlmək istəyənlərlə hakimiyyətini qoruyub- saxlamağa çalışanların vəzifə davasına qurban gedən alınmaz qala alındı! "Şuşa gedərsə, başıma güllə çaxaram" məşhur deyimin müəllifi olan bu xəyanət simvolu isə, Şuşanın 26 ildir düşmən tapdağında olmasına baxmayaraq, hələ də bu xəbəri "ala bilməməsi" və sözünə əməl etməməsi çox qəribədir. Hətta bu məxluq bu gün ortaya düşüb də, həyasızcasına vətənpərvərlikdən, qeyrətdən və namusdan moizələr oxuyur. Təəccüblüsü də odur ki, onun bu moizələrinə cəmiyyətdə züy tutanlar da olur. Tarix boyu bir sıra xalqlarda döyüşü uduzan tərəf, məğlubiyyətin səbəbkarlarını, buna şərait yaradanları üzə çıxarır, onu və ya onları ən ağır şəkildə cəzalandırır. Nəinki müharibədə, adi idman yarışlarında belə məğlubiyyətə bilərəkdən şərait yaradan oyunçu cəzalandırılır və bir daha oyuna buraxılmır. Amma bizi düşmən qarşısında əyən səbəbkarlar hələ də cəmiyyətdə at oynatmaqdadırlar. Alınmaz qalanı aldıran, hakimiyyət, vəzifə və kreslo naminə Vətən torpaqlarını hərraca qoyanlar cəzalarını almalıdırlar. Almalıdırlar ki, gələcəkdə bu əşgə düşənlər üçün görk olsun. Görk olsun ki, belə namərdliklərdən uzaq dursunlar. Uzaq dursunlar ki, Vətənini təmənnasız sevən, bu Vətən uğrunda ölməyə hazır olan oğullar arxadan zərbə vurulmayacağına əmin olsunlar. Əmin olsunlar ki, ALINMAZ QALAMIZA-ŞUŞAYA doğru daha böyük və daha qətiyyətli addımlarla irəliləsinlər...

# "Sarkisyanın apardığı siyasət "kupça sahibləri"ni narahat etməyə bilməzdi"

## Fəzail İbrahimli: "Ermənistanda hadisələrin orbitdən çıxıb vətəndaş müharibəsinə keçməsinə imkan vermirlər"

Müsahibimiz Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini, millət vəkili Fəzail İbrahimlidir

***- Fəzail müəllim, son vaxtlar Azərbaycandan gedən bəzi mühacirlər ölkəmizə və xalqımıza qarşı təhqiramiz ifadələr səsləndirir, videolar paylaşırlar. Sizcə, onları ölkəmizə qarşı anti-təbliğat kampaniyası aparmağa hansısa xarici qaranlıq dairələrin təhrik etdiyini demək olarmı?***

- Azərbaycanın geosiyasi vəziyyəti, böyük dövlətlərin ölkəmizə olan marağı və bu maraqlar altında gizlənən məkrli niyyətlər müxtəlif formada ifadə olunur. Sual olunur, dünya dövlətləri içərisində hansı dövlətin ərazisi işğal olunub? Heç bir dövlətin. Ancaq dünya bilir ki, Ermənistan 25 ildir ki, Azərbaycanın torpaqlarını işğal edib. Amma bu məsələyə beynəlxalq təşkilatlar və böyük dövlətlər susqunluq göstərir, işğal faktına göz yumurlar. Bilirsiniz, məsələyə real müstəvidən yanaşmaq olar. Demək lazımdır ki, ilk olaraq, sən mənim haqqımı özümə qaytar və daha sonra məndən nə isə tələb elə. Dövlətlərin və xalqların da hüquq və vəzifələri var. Bizdən tələb olunanlar əsassız və absurddur. Çünki 25 ildir ki, Azərbaycanın torpaqları işğal olunub. Bununla bağlı BMT və digər beynəlxalq təşkilatların qətnamələri var. Münaqişənin sülh yolu ilə həll edilməsi üçün ATƏT-in Minsk Qrupu da yaradılıb, amma real nəticə yoxdur. Bu reallığı da dünyanın böyük dövlətləri çox yaxşı bilir. Azərbaycanın işğal olunan 20 faiz torpağını azad etmək nə dərəcədə beynəlxalq təşkilatlar və aparıcı dövlətlər üçün çətindir? Bu, dünya üçün rəzil və dözülməz vəziyyətdir.

Gücləri çatmır işğalçıya? Bunlar nəinki torpaqlarımızı işğaldan azad etmək istəmirlər, hətta indiyə qədər işğalçını öz adı ilə çağırmayıblar. Bu münaqişənin həllinə ikili yanaşmadan başqa bir şey deyil.

***- Ermənistanda kütləvi şəkildə insanlar döyülür, öldürülür, həbsə atılır, dünya birliyi isə susur. Azərbaycanda isə xırda insident baş verəndə, hay-küy salırlar?***

- Ermənistan parlamentində deputatlar güllələnən edilir, anti-demokratik şəkildə keçirilən seçkilərə etiraz etmək üçün küçələrə çıxanlar öldürülür, amma beynəlxalq təşkilatlarda bunun birinin adı tutulmur. Hazırda Ermənistanda cərəyan edən xaos və anarxiyaya, özbaşınalığa dünya birliyi çox soyuqqanlı, bir az da narahatçılıq formasında yanaşma nümayiş etdirir. Əgər Azərbaycanda bu hadisələr baş versəydi, indi dünya ölkəmizin üstünə çökmüşdü. Azərbaycana qarşı olan tələblərin özündə məntiq yoxdur. AŞPA işğalçı dövlətlə, işğala məruz qalan dövlət arasında heç bir fərq qoymur, onlara eyni statusa malik dövlətlər kimi yanaşır, hətta müəyyən məsələlərdə bir az da tərəzini işğalçı dövlətə tərəf əyir. Bu, haqsızlıq və ədalətsizlikdir. AŞPA münaqişənin həllinə müdaxilə edilməlidir. Ermənistana işğalçı dövlət kimi vaxt verməlidir ki, bu torpaqlar işğaldan azad edilsin. Təəssüf ki, dünyada bir oyun gedir. Artıq orta məktəb şagirdləri də dünyada gedən prosesləri görür və bilir.



***- Belə çıxır ki, hədəf ancaq müsəlman ölkələridir?***

- Hal-hazırda yer üzündə, adı qoyulmasa da, bir müharibə gedir. Burada söhbət müsəlman dünyasına qarşı gedən müharibədən gedir. Ərəb dünyası qan içərisindədir, Türkiyə siyasi burulğanlara cəlb edilib, gah dövlət çevrilişi etmək istəyirlər, gah ərazisini işğal etmək və orada başqa dövlət yaratmaq istəyirlər, indi də cəlb olunub Suriya prosesinə. Amma Türkiyə dövləti güclüdür, qüdrətlidir, onların qabağında dayanır və dayanacaq da.

***- Ermənistandakı hadisələrdən bəzi yerli və xarici qüvvələr ruhlanıblar. Bunun Azərbaycanda təkrarlanması üçün sosial şəbəkələrdə iş aparırlar. Sizcə, nəyə görə, bir qrup ünsür yenidən ötən əsrin 90-cı il hadisələrinin Azərbaycanda təkrar olunmasını arzu edirlər?***

- Ermənistandakı hadisələrin Azərbaycanda təkrarlanmasını istəyən qüvvələr ölkəmizi sevməyən qüvvələrdir. Bu gün dünyaya nümunə ola biləcək sabitliyimiz, iqtisadi, siyasi və hərbi uğurlarımız var. Azərbaycan, həqiqətən də, sabitlik adasıdır. Bu uğur və nailiyyətlərə toxunmaq olmaz. Hal-hazırda Ermənistanda baş verən hadisələr ermənipərəst dairələrdə ciddi narahatlıq yaradıb. Xüsusilə də, Ermənistanda məcrasından çıxmaqda olan baş verən hadisələrdən Rusiya təşvişə düşüb. Demək olar ki, bu proseslərdə bəzi güclərin və erməni lobbisinin öz proqramları var. Erməni lobbisi və bəzi güclər Ermənistanda hadisələrin orbitdən çıxıb, vətəndaş müharibəsinə keçməsinə imkan vermirlər.

***- Rusiya Ermənistana nəzarəti itirərsə, bu ölkədə vətəndaş müharibəsi baş verə bilərmi?***

- Ataların belə bir məsəli var: çoxbilmiş quş dimdiyindən ilişər və ya sirkə nə qədər tünd olsa, öz qabını çatladar. Yəni bu misalların hər ikisi Ermənistana aiddir. Rusiya açıq şəkildə elan eldədi ki, Ermənistan onların forpostudur. Qarabağı kim işğal edib? Guya erməni işğal edib? Qarabağı ermənilərin də iştirak etdiyi rus hərbi qüvvələri işğal edib. Rusiyanın Xankəndidəki 366-cı motoatıcı diviziyası ermənilərə kömək etməklə Xocalıda insanlığa və bəşəriyyətə qarşı yönələn cinayətlər törətdi. Xocalı şəhəri bir gecənin içində yerlə yeksan olundu. Hazırda Qafqaz üzərində nüfuz dairəsi uğrunda müharibə gedir. Bu baxımdan, bu günlər Azərbaycan, Gürcüstan və Ermənistan çətin bir durumla üzləşiblər. Azərbaycan apardığı balanslaşdırılmış siyasəti ilə sabitliyini qorumaq istəyir. Ermənistandakı vəziyyət isə, son dərəcədə kritikdir. Serj Sarkisyanın hakimiyyətdə olduğu son dönəmlərdə apardığı Avropa yönümlü siyasət və Avropaya meyil etməsi artıq onun bir kadr kimi yararsızlığını ortaya qoymuşdur. Çünki Ermənistan özəlləşmiş bir respublikadır. Sarkisyanın apardığı siyasət "kupça sahibləri"ni narahat etməyə bilməzdi və bu baxımdan, onun arxasında dayanmadılar. İndi Avropa özünün Avropa düşüncəli, istəkli və istiqamətləndirdiyi adamını hakimiyyətə gətirmək istəyir. Erməni lobbisinin də istəyi Avropa istəyi ilə üst-üstə düşür. Rusiyada da özünün nüfuz dairəsini burada saxlamaq üçün cəhdlər edir. Ümumiyyətlə, hər bir dövlət, o cümlədən, istər ABŞ, istərsə də Avropa Cənubi Qafqazda öz nüfuz dairəsini qoruyub-saxlamaq üçün müxtəlif metodlardan istifadə edir. Yəni pul buraxırlar, təbliğatla məşğul olurlar və içəridə adamlar hazırlayırlar.

***- Sizcə, Ermənistanda Avropa düşüncəli şəxs hakiyyətə gələrsə, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə nail olmaq olarmı?***

- Kim Ermənistan vasitəsi ilə Dağlıq Qarabağ probleminin həllini düşünürsə, o, çox sadəlövh adamdır.

***- Niyə?***

- Ona görə ki, Dağlıq Qarabağ münaqişəsinin həllinin açarı Rusiyanın cibindədir. Ermənistanın ağası olan Rusiya nə zaman Dağlıq Qarabağın işğaldan azad edilməsini istəsə, onda Dağlıq Qarabağ azad olunacaq.

***GÜLYANƏ***

TƏRS BAXIŞ

# Sərdar Cəlaloğlu yenidən Əli Kərimlini "yada" saldı

## ADP sədri: "Hansı haqla müraciət edir? Həmin müraciətin səmimiliyinə, artıq bura qədər olan fəaliyyətin hesabına kölgə düşür"



***Seçkilərdən sonra ənənəvi müxalifət "liderləri"nin bir-birinə qarşı səsləndirdikləri ittihamları elə onların özləri tərəfindən "siyasi mübarizə"nin normal elementi hesab edilir. Yəni fərqi yoxdur ki, kimsə seçkilərdə iştirak etdi, yaxud etmədi, boykot qərarı verdi - əsas budur ki, seçkisonrası ittihamlar səslənsin və hər kəs bu məsələdə özlərini "doğru tərəf" olaraq ictimai rəyə tanıtsın. Lakin söz yox ki, Azərbaycan cəmiyyətinin müxalifətdən üz çevirməsinin, "liderlərini" isə, bilavasitə rədd etməsinin başlıca səbəblərindən biri də budur.***

11 aprel prezident seçkilərinə namizəd olaraq atılmış ADP sədri Sərdar Cəlaloğlu vaxtilə onu bu addımına görə ittiham edən AXCP sədri Əli Kərimlini "piyada" salıb və bildirib ki, Ə.Kərimli sosial şəbəkədə oturub və zaman-zaman xalqa "müraciətlər" edir. Lakin onun fikirlərini hesaba alan belə yoxdur: "Hansı haqla müraciət edir? Həmin müraciətin səmimiliyinə artıq bura qədər olan fəaliyyətin hesabına kölgə düşür".

### "Hanı o bütün müxalifət? Azərbaycanda bütün müxalifət var? Müxalifət dağılmış bir vəziyyətdədir"

S.Cəlaloğlu AXCP sədrinin müxalifət düşərgəsinin bütün parçalanma faktlarında əlinin olduğunu deyib və bildirib ki, bu adam hazırkı dövrə qədər müxalifətin birləşməsinə mane olub, sonra da həyasızcasına bütün müxalifətə müraciət edir. Hanı o bütün müxalifət? Azərbaycanda bütün müxalifət var? Müxalifət dağılmış bir vəziyyətdədir".

Müşahidəçilər də belə hesab edirlər ki, bu günə qədər bütün müxalifətin əməkdaşlıq cəhdləri heç vaxt baş tutmayıb və ona görə də, onun gah düşərgədəki partiya sədrlərinə, yaxud ictimaiyyətə çağırış etməyə mənəvi haqqı yoxdur.

### Sərdar Cəlaloğluda Əli Kərimli barədə yeni kompromatlar var?

ADP sədri düşərgənin ambisiozluğun qurbanına çevrildiyini də deyərək, Ə.Kərimli qədər Müsavatın da parçalanmada kifayət qədər rolunun olduğunu bildirib: "Ümumiyyətlə, bu iki partiyanın tutduğu mövqeyə görə müxalifət bir araya gəlməyib, hətta gəlibsə belə, bu "müttəfiqliyin" ömrü çox qısa olub".

Beləliklə, ADP sədri S.Cəlaloğlu əsasən, AXCP sədrini hədəfə alıb və bu məsələnin arxasında çox yəqin ki, müəyyən kompromatların olduğunu düşünmək olar. Hər halda, Ə.Kərimliyə qarşı ADP hücumu arxasında yeni və daha kəskin savaşın baş qaldırmasını gözləmək olar.

***Rövşən RƏSULOV***

# "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərində mayın 9-u qeyri-iş günüdür

9 May - Qələbə Günü münasibətilə "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərində qeyri-iş günüdür. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən AZƏRTAC-a bildiriblər ki, 10 may tarixindən etibarən isə vətəndaşlar mərkəzlərə müraciət etməklə müvafiq xidmətlərdən yararlana bilərlər.

Qeyd edək ki, hazırda 13 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir. Onlardan 5-i paytaxtda olmaqla, digərləri Sumqayıt, Gəncə, Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba və Mingəçevirdədir. Həmçinin Bakı şəhərində əhaliyə kommunal sahədə xidmətlər göstərən 2 "ASAN Kommunal" mərkəzi fəaliyyətdədir.

# Sınaq imtahanlarında istifadə edilmiş test tapşırıqlarının doğru cavab etalonları açıqlanıb

Dövlət İmtahan Mərkəzi (DİM) 10-cu sinif şagirdləri üçün keçirilən sınaq imtahanında istifadə edilmiş sual kitabçaları və test tapşırıqlarının doğru cavab etalonlarını açıqlayıb. Doğru cavab etalonları ilə DİM-in saytında tanış olmaq mümkündür. Mərkəzdən AZƏRTAC-a bildirilib ki, yazılı cavabların yoxlanılması uzun müddət tələb etdiyindən imtahan nəticələrinin yaxın iki həftə ərzində elan olunması nəzərdə tutulur. Hazırda imtahan protokollarının və cavab vərəqələrinin emalı aparılır.

Sınaq imtahanlarında istifadə olunmuş sual kitabçalarının elektron versiyasını DİM-in internet saytının "Elektron xidmətlər" bölməsində >"DİM nəşrlərinin elektron versiyalarının onlayn satışı" "Sual kitabçaları" xidməti vasitəsilə ödəniş etməklə əldə etmək mümkündür. Xatırladaq ki, yaxın günlərdə abituriyentlər, həmçinin müəllimlər, ekspertlər, valideynlər sınaq imtahanlarında istifadə olunmuş test tapşırıqlarının izahını da DİM-in saytından əldə edə biləcəklər.









# “Hakan Foods” MMC təmizlik və halallıq ünvanıdır

***Yaxud, 2001-ci ildən “Kral” markası altında istehsala başlayan şirkətin prioriteti insanları halal və ekoloji təmiz ət məhsulları ilə təmin etməkdir***

Prezident İlham Əliyev tərəfindən həyata keçirilən inkişaf strategiyası nəticəsində ölkəmizdə ət məhsulları istehsalı sektorunun hərtərəfli dəstəklənməsi və onun daha da genişlənməsi üçün əlverişli mühit yaradılıb. Elə bunun məntiqi yekunudur ki, son illər ərzində Azərbaycanda halal, təmiz və ekoloji sağlam ət məhsulları istehsal edilir. Məhz, ölkəmizin ət və ət məhsulları istehsalı sektorunda aparıcı mövqeyə malik olan şirkətlərdən biri də “Hakan Foods”dur.

Qeyd edək ki, “Hakan Foods” MMC müstəqil təsərrüfat subyekti olaraq Azərbaycan Respublikasının Mülki Məcəlləsi, digər qanunvericilik aktlarına və Nizamnaməyə müvafiq olaraq 2001-ci ildən “Kral” markası altında ekoloji təmiz kolbasa, sosiska, servelat, vetçina, mal delikatesi və s. ət məhsulları istehsalına başlayıb.

İstehsal müəssisəsinə media-tur təşkil edən şirkət prezidenti Yavuz Həsənov jurnalistlərlə görüşündə bildirib ki, “Hakan Foods” MMC təmizlik və halallıq ünvanıdır. Məhz 2001-ci ildən “Kral” markası altında istehsala başlayan şirkətin prioriteti insanları halal və ekoloji təmiz ət məhsulları ilə təmin etməkdir. Yavuz Həsənov jurnalistlərə son illərin məhsul və istehsalat yenilikləri barədə informasiya verib.

“Hakan foods” MMC 1.2 hektar ərazidə yerləşir. Şirkətin kompleksinə ən müasir avadanlıqlarla təchiz edilmiş laboratoriya, ət məhsulları istehsalı sahələri, soyuducu anbarlar, daşıma sistemləri daxildir. Ət məhsullarının istehsalı üçün idxal olunan qida məhsullarının bir qismi soyuducu anbarlarda saxlanılır. Şirkətin günlük istehsal gücü 20 tona qədər olan istehsal sahəsi var.

İstehsal olunmuş məhsullar tamamilə halal olduğundan İslam ölkələrinə ixrac edilirdi. Lakin son illərdə İraqda, Suriyada baş verən müharibələr səbəbindən məhsul ixracı böyük risklərlə qarşılaşmaqdadır. Bu gün eyni zamanda “Kral” markası ilə istehsal olunmuş ət məhsullarının dünyanın digər ölkələrinə də ixrac olunması prosesi üzərində işlər gedir. Əlbəttə ki, şirkətin əsas məqsədlərindən biri “Made in Azerbaijan” brendi altında dünya bazarına çıxmaqdır. Onu da diqqətə çatdıraq ki, “Kral” ət məhsulları bu günə qədər onlarla beynəlxalq və yerli sərgilərdə iştirak edib, dəfələrlə məhsulların keyfiyyətinə görə diplomlar, medallar və sertifikatlarla təltif edilib.

“Hakan Foods” MMC təxminən 42 adda kolbasa və sosiska məhsulları istehsalı üçün “Halal Qida” Dövlət Standartı üzrə uyğunluq və gigiyenik sertifikatlarına layiq görülüb. İllik istehsal gücü 2500 tona çatan ət emalı sahəsində müxtəlif çeşidlərdə məhsul istehsal edilir. Ən maraqlısı da odur ki, “Kral” markası altında istehsal olunan ət məhsullarına Azərbaycanın qədim və tarixi diyarlarının, şəhərlərinin adları verilib. “Zəngəzur”, “Gümrü”, “Dərələyəz”, “Vedibasar”, “Göyçə” və başqa adlarda istehsal olunan ət məhsulları yüksək keyfiyyəti ilə yanaşı, eyni zamanda, tarixi torpaqlarımıza bağlılığımızı da təlqin edir.

Yavuz Həsənov bildirib ki, ət məhsullarının istehsalı və saxlanma şəraiti ən müasir standartlara uyğundur. O, hər kəsi əmin edir ki, “Kral” məhsulları tam halaldır və bu ət məhsullarının istehsalında donuz ətindən və mənşəyi bəlli olmayan ətlərdən qəti şəkildə istifadə edilmir. İctimaiyyət də bilsin ki, şirkətin Beyləqan rayonunda fermer təsərrüfatı vardır ki, istehsal üçün ət əsasən oradan tədarük edilir.

Yüksək keyfiyyətə təminat verən amillərdən biri də məhsulların tərkibinə nəzarətdir. Şirkətin ən müasir avadanlıqla təchiz olunmuş Mərkəzi Laboratoriyası var. Laboratoriyada ayrıca həkim mikrobioloq, eləcə də fiziki-kimyəvi müayinə otaqları mövcuddur. Hətta şirkətin laboratoriyası dövlət nəzarətindədir və xüsusi sertifikat alıb. Yəni, bu laboratoriyada istənilən məhsulun tərkibi və keyfiyyəti yoxlanıla bilər. Bununla yanaşı, dini qaydalarımıza uyğun olaraq kəsilmiş heyvanlar baytarlar tərəfindən yoxlanılır, möhür vurulur, sənədləşdirmə işləri aparılır və sənədlərlə birlikdə ət şirkətə daxil olur. Kolbasanın tərkibinə vurulan qatqıların bir hissəsi isə idxal olunur.

Yavuz Həsənov diqqətə çatdırdı ki, mütəmadi olaraq ictimai yoxlamalar da təşkil edilir, vətəndaşlar, qida sənayesi üzrə təhsil alan tələbələr bütün istehsalat prosesini öz gözləri ilə görə bilirlər. Bildirib ki, şirkətin məqsədi keyfiyyətli məhsullar istehsal edib insanlara çatdırmaqdır. Hazırda “Kral” markası altında istehsal olunan ət məhsulları ilə əlaqədar uduş kampaniyasına da start verilib. Bununla “Hakan foods” şirkəti insanlara sağlam, ekoloji təmiz və halal ət məhsullarını təqdim etməklə, onların qiymətli hədiyyələr əldə etməsinə də şərait yaradır.

Media-tur zamanı bütün istehsal prosesi ilə, o cümlədən məhsulun ilkin hazırlanması, kolbasa və sosislərin istehsalı, bir sözlə, bütün işlərlə yaxından tanış olan jurnalistlər “Kral” markası ilə istehsal olunan məhsullardan da daddılar. Gəlinən qənaət o oldu ki, “Kral” ət məhsullarının istehsalı tamamilə müasir texnika və texnologiya əsasında, təmiz şəraitdə və halal olaraq istehsal olunur. İstehsalın əksər hissəsi isə avtomatlaşdırılıb və əsasən, alman texnologiyasından istifadə edilir.

Göründüyü kimi, “Hakan Foods” MMC-nin “Kral” markası altında istehsal etdiyi ət məhsulları tamamilə təmiz, halal və ekoloji təmizdir. Jurnalistlər canlı olaraq “Kral” ət məhsullarının istehsalı prosesini izlədi. Bunun əyani şahidi olmaq istəyənlər də ictimai yoxlamalardan istifadə edib halal ət məhsulları istehsalı prosesini gözləri ilə görə bilərlər. Geri qalan məsələ isə “Kral” ət məhsullarını almaq, dadmaq və qiymətli hədiyyələr qazanmaqdır.

# “Nar” 2018-ci ilin ilk rübünün nəticələrini açıqladı

***“Azerfon” MMC (“Nar” ticarət nişanı) cari ilin ilk rübünün nəticələrini açıqlayıb. Nəticələrə əsasən, bu dövr ərzində şirkət bir çox göstəricilər üzrə yüksək artım dinamikası nümayiş etdirib. Bu göstərici üzrə təkcə paytaxt ərazisində deyil, həmçinin bölgələrdə də yüksək nəticə əldə edilmişdir ki, bu da mobil operatorun regionlardakı şəbəkəsini gücləndirməsi sayəsində mümkün olmuşdur. Belə ki, “Nar”-ın sərfəli internet paketləri sayəsində ilin ilk rübündə mobil internetdən istifadədə 68% artım olmuşdur. Dünya təcrübəsində mobil zənglərə tələbatın azalma trendinə baxmayaraq, “Nar”-da səsli zənglərin həcmi keçən ilə nisbətdə dəyişməz olaraq qalmışdır.***




Cari ilin ilk üç ayı ərzində mobil operator ölkə ərazisində 156 yeni baza stansiyası quraşdırmışdır. Mobil operator Bakı şəhəri və Abşeron yarımadasında 84, Gəncə, Göyçay, Quba, Cəlilabad, Mingəçevir, Salyan, Şəki, Şəmkir, Tovuz, Zaqatala və respublikanın digər bölgələrində isə 63 yeni LTE baza stansiyasını istifadəyə vermişdir. Artıq bölgələrdəki “Nar” abunəçiləri də mobil operatorun LTE texnologiyası ilə təmin etdiyi 225 Mbit/s çatan sürət sayəsində internet resurslarından daha səmərəli şəkildə istifadə edirlər.

“Cari ilin ilk rübündə göstərdiyimiz nəticələri çox müsbət qiymətləndirirəm. Bu nəticələr “Nar”-ın sərfəli qiymətləri və abunəçi yönümlü strategiyası sayəsində mümkün olmuşdur. Şəbəkə infrastrukturuna yatırdığımız sərmayələr nəticəsində 3G və 4G şəbəkəmizi əhəmiyyətli dərəcədə genişləndirdik”, - deyə “Azerfon” MMC-nin baş icraçı direktoru Qunnar Panke nəticələri şərh edərkən bildirib.

Hazırda genişləndirilmiş “Nar” şəbəkəsi ölkə ərazisinin 93%-ni əhatə edir və 6500-dən artıq baza stansiyası ilə 2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən “Nar” şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olmuşdur. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan “P3 Communications” keçirmiş və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanmışdır.

“Azerfon” şirkəti (“Nar” ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilmişdir. “Nar” ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilmişdir. “Nar” ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim etmiş və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə vermişdir.

# Azərbaycan Xalq Cümhuriyyəti dövlətçilik ənənələrinin bərpasının və milli hüquqlarımızın təzahürüdür

***Azərbaycanın şimalında dövlətçilik ənənələrini AXC bərpa etdi və milli hüquqlarımızı qorudu. Y.Mahmudov yazır: "Cümhuriyyət xadimlərinin çox böyük tarixi xidməti bu idi ki, onlar yurdumuzun şimalında Rusiya işğalından sonrakı dövrdə unutdurulmuş müqəddəs "Azərbaycan" möhürünü xalqımıza qaytardılar. Dirçəldilən dövlətimiz dünyaya "Azərbaycan" adı ilə qədəm qoydu.***

Cümhuriyyət xadimləri, eyni zamanda, Azərbaycan tarixində parlament madəniyyətinin də əsasını qoydular. Onlar İstiqlal Bəyannaməsinin 6-cı bəndində "Azərbaycanın başında xalqın seçdiyi Milli Şura durur" fikrini qanunlaşdırmaqla, həm Milli Şuranın ilk Azərbaycan parlamenti olduğunu, həm də Milli Şuranın elan etdiyi Cümhuriyyətin Azərbaycan xalqının qanuni dövləti olduğunu təsdiq etdilər.

Gənc Azərbaycan dövləti son dərəcə mürəkkəb daxili və beynəlxalq şəraitdə doğulmuşdu. Bakda hakimiyyəti S.Şaumyanın başçılıq etdiyi daşnak-bolşevik güruhu ələ keçirmiş və Azərbaycanın türk-müsəlman əhalisinə qarşı dəhşətli soyqırımına başlamışdı. Çar generalları tərəfindən silahlandırılmış erməni quldur dəstələri Şərqi Anadolunun, Cənubi və Qərbi Azərbaycanın türk-müsəlman əhalisinə qarşı qanlı qırğını-soyqırımı davam etdirirdilər. Azərbaycan xalqının qəddar düşmənləri olan erməni cəlladlar Şaumyan və Andranik əlbir fəaliyyət göstərirdilər. Azərbaycan xalqı fiziki cəhətdən məhv edilmək təhlükəsi qarşısında idi. Neft Bakısını ələ keçirməyə çalışan xarici qüvvələr arasındakı rəqabət sona çatmaqda və bütün Cənubi Qafqaz üçün yeni təhlükə-bolşevik Rusiyasının təcavüzü təhlükəsi yaxınlaşmaqda idi. Azərbaycan xalqı öz tarixinin ağır yolayrıcında qalmışdı: ya milli qurtuluş, ya da ki, məhv edilərək Cənubi Qafqazın etnik-siyasi xəritəsindən tamamilə silinib götürülmək. Azərbaycanı müstəqil dövlət elan etmiş Cümhuriyyət xadimləri, məhz belə bir tarixi şəraitdə çaşqın vəziyyətə düşmüş və çıxış yolu tapa bilməyən xalqın önünə keçdi.

1918-ci il iyunun 16-da Milli Şura və hökumət özünün fəaliyyət mərkəzini Gəncəyə köçürdü. Ölkədə yaranmış real vəziyyəti və konkret tarixi şəraiti nəzərə alan Azərbaycan Milli Şurası iyunun 17-də Gəncədə iki mühüm qərar qəbul etdi: öz fəaliyyətini müvəqqəti olaraq dayandırdı; bütün hakimiyyəti (həm qanunvericilik, həm də icra hakimiyyətini).

Azərbaycan Xalq Cümhuriyyətinin parlamentində bütün milli azadlıqların nümayəndələri təmsil olunmuşdu. Akademik Y.Mahmudovun fikrincə, Azərbaycan Parlamentin fəaliyyətə başladığı dövrdəki tariximizin çox mühüm ibrət dərslərindən biri də budur ki, Cümhuriyyət xadimlərinin, bütün xalqımızın ilk Azərbaycan Parlamentində ermənilərə 21, ruslara isə 10 yer ayırmasına baxmayaraq, onlar Parlamentin açılışında iştirak etmədilər. Bakıda fəaliyyət göstərən Rus Milli Şurası Azərbaycanın öz müstəqilliyini elan etməsilə "Vahid və bölünməz Rusiya"nın parçalanmasına yol açdığı üçün "Azərbaycanın Rusiyadan ayrılması faktını tanımadı" və Azərbaycan Parlamentini boykot etmək barədə qərar qəbul etdi. Lakin Azərbaycanda yaşayan rus-slavyan əhalisinin təzyiqi ilə sonralar Rus Milli Şurası həmin qərarı ləğv etməyə məcbur oldu.

O zamankı tariximizin digər mühüm ibrət dərslərindən biri də budur ki, həmin dövrdə Azərbaycanın müstəqilliyi ilə barışa bilməyən ermənilər də Rus Milli Şurasının müdafiə etdilər və iki aydan çox müddət ərzində Parlamentin iclaslarında iştirak etmədilər. Parlamentə qatıldıqdan sonra isə həmişə Azərbaycan dövlətçiliyinə qarşı xəyanət mövqeyindən çıxış etdilər.

Bundan əlavə, ölkədə ali hakimiyyəti öz əlində cəmləşdirmiş və sayı 100 nəfərə çatmayan Parlamentdə 11 fraksiya və qrupun fəaliyyət göstərməsi də olduqca mürəkkəb daxili və beynəlxalq şəraitdə müstəqil dövlət quruculuğuna ciddi əngəl törədirdi. Ayrı-ayrı fraksiya və qruplar bir çox hallarda özlərinin məhdud fraksiya qrup mənafelərini ümummilli mənafedən üstün tuturdular. Məsələn, Parlamentin sosialist bloku "yoxsulların manafeyini müdafiə etmak" pərdəsi altında, müntəzəm olaraq, Azərbaycanın Sovet Rusiyasına birləşdirilməsini təbliğ etmiş, Sovet Rusiyasında diplomatik nümayəndəlik açılması barədə qərar qəbul edilməsinə nail olmuş, nəhayət, Qırmızı Ordunun ölkəyə müdaxiləsinə tərəfdar çıxmışdı ki, bu da, mahiyyətcə, Azərbaycan Xalq Cümhuriyyətinə qarşı pozuculuq işi aparmaqdan başqa bir şey deyildi.

Bununla belə, Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti öz fəaliyyəti ərzində, o cümlədən, 17 aylıq aramsız fəaliyyəti dövründə həyata keçirdiyi müstəqil dövlət quruculuğu təcrübəsi ilə, qəbul etdiyi yüksək səviyyəli qanunvericilik aktları və qərarları ilə Azərbaycan dövlətçiliyi tarixində, xüsusən də, Parlament mədəniyyəti tarixində dərin və zəngin iz qoymuşdur.

Azərbaycan Parlamentinin və Cümhuriyyət hökumətinin fəaliyyətinin yox mühüm hissəsini daim özünə cəlb edən məsələlərdən biri də yaxın qonşularla münasibətlər və sərhəd məsələləri olmuşdur. Aparılan çox gərgin işdən sonra Gürcüstanla münasibətlər nizama salınsa da, Ermənistan hökumətinin böyük ərazi iddiaları üzündən Azərbaycan - Ermənistan münasibətlərini normal məcraya yönəltmək mümkün olmamışdı. Azərbaycan Xalq Cümhuriyyəti dövründə qonşu İranla da bir sıra saziş və müqavilələr imzalanmış və həmin sənədlər Parlamentdə təsdiq olunmuşdur.

Cümhuriyyət dövründə Azərbaycanda parlamentçilik ənənələri getdikcə möhkəmlənir və inkişaf edir, ən müasir parlament mədəniyyəti formalaşırdı. Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu dövrdə, ümumiyyətlə, 155 parlament iclasi keçirilmişdir ki, bunun da 10-u Azərbaycan Milli Şurasının, 145-i isə Azərbaycan Parlamentinin fəaliyyət göstərdiyi dövrdə olmuşdur.

Parlamentin müzakirəsinə 270-dən çox qanun layihəsi çıxarılmış, onlardan 230-a yaxnı qəbul olunmuşdu. Qanunlar qızğın və işgüzar fikir mübadiləsi şəraitində müzakirə edilir, özü də yalnız üçüncü oxunuşdan sonra qəbul olunurdu.

Parlament qanunlarının hazırlanması, müzakirəsi və təsdiq olunmasında 11 fraksiya və qrupa mənsub olan millət vəkilləri iştirak edirdilər. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 11 komissiyası vardi. Parlamentin fəaliyyəti, xüsusi olaraq, bu məqsəd üçün hazırlanmış Nizamnamə - "Azərbaycan Pardamentinin nakazı (təlimatı) əsasında idarə olunurdu. Azərbaycan xalqının tarixində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti, eyni zamanda, bütün Şərqdə, o cümlədən, türk-islam dünyasında ilk demokratik, hüquqi və dünyəvi dövlət nümunəsi idi.

Azərbaycan Xalq Cümhuriyyəti özünün siyasi quruluşuna, həyatakeçirdiyi demokratik dövlət quruculuğu tədbirlərinə, həmçinin, qarşısına qoyduğu məqsəd və vəzifələrə görə də Avropanın ənənəvi demokratik respublikalarından geri qalmırdı.

Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdəki yeri və roluna da ən dolğun və düzgün qiyməti, məhz Ulu Öndər Heydər Əliyev vermişdir. O, tariximizin bu şanlı səhifəsi ilə bağlı bütün çıxışlarında dönə-dönə qeyd etmişdir: "Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır. O, demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı mühüm addımları başa çatdıra bilməsə də, onun qisa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynamışdır. Ən əsası odur ki, Azərbaycan Xalq Cümhuriyyəti az yaşasa da, xalqımızda azadlıq, müstəqillik fikirlərini daha da gücləndirmiş oldu. Bu Cümhuriyyətin yaradılmasında müstəsna xidmətləri olan Məhəmməd Əmin Rəsulzadə, Əli-Mərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Həsən bəy Ağayev, Nəsib bəy Usubbəyov, Mehdi bəy Hacınski, Məmməd Yusif Cəfərov, Xudadat bəy Rəfibəyov, Əkbər ağa Şeyxülislamov, Teymur bəy Makinski, Səməd bəy Mehmandarov, Əliağa Şıxlınski, Sultan Məcid Qənizadə, Xəlil bəy Xasməmmədov, Əhməd bəy Pepinov, Şəfi bəy Rüstəmbəyov kimi görkəmli ictimai xadimlərin xatirəsini qadirbilən Azərbaycan xalqı bu gün də böyük ehtiram hissi ilə yad edir".

Azərbaycan Xalq Cümhuriyyətinin meydana gəldiyi və fəaliyyət göstərdiyi tarixi dövr hərtərəfli və dərindən araşdırılmayıbdır. Buna isə böyük ehtiyac vardır. Məsələn, bu günədək Birinci Dünya müharibəsi dövrünün Azərbaycanına bütöv halda, yeni şimallı-cənublu, ümumi bir baxış yoxdur. Şimallı-cənublu bütün Azərbaycan, eləcə də, Şərqi Anadolu eyni soyqırımı siyasətinə məruz qalsa da, bu problem də bütöv halda - vahid soyqırımı siyasətinin tərkib hissələri kimi araşdırılmayıbdır. Erməni quldurlarının və onların havadarlarının soyqırımı siyasəti, bütövlükdə, türk-müsəlman əhaliyə qarşı çevrildiyi halda, elmi araşdırmalarda, çox hallarda bu cinayət aktının türklərdən başqa digər müsəlman xalqlarına da qarşı yönəldiyi vurğulanmır.

Azərbaycan Xalq Cümhuriyyəti tarixinin araşdırılmasında öz həllini gözləyən digər mühüm bir məsələ də bundan ibarətdir ki, indiyədək Birinci Dünya müharibəsi illərində, xüsusilə, Romanovlar mütləqiyyətinin devrilməsindən sonrakı dövrdə, böyük dövlətlərin xarici siyasət planlarında bütöv Azərbaycan probleminə dair ayrıca tədqiqat işləri, ən azı, yeni ruhda elmi araşdırmalar aparılmayıbdır. Daha doğrusu, Azərbaycan Xalq Cümhuriyyətinin əsl tarixini, real surətdə yaşanmış tarixini ortaya qoymaq üçün müvafiq dövrdə ayrı-ayrılıqda Türkiyə-Azərbaycan, Rusiya-Azərbaycan, İngiltərə-Azərbaycan, Almaniya-Azərbaycan münasibətlərini daha dərindən tədqiq etmək vacibdən də vacibdir!

Ən başlıcası isə budur ki, tarix elmimizə göstərilən dövlət qayğısına cavab olaraq xalqının şanlı keçmişi olan Azərbaycan Xalq Cümhuriyyətinin obyektiv, real surətdə yaşanılmış və subyektiv mülahizələrdən uzaq olan həqiqi tarixi - ilk mənbələr üzərində qurulmuş tarixi yaradılmalıdır. Elə bir tarix ki, onu yaradanlardan heç birinin haqqı tapdalanmasın! Elə bir tarix ki, 1918-1920-ci illərdə yaşanılmış tarixə müvafiq olsun!

Azərbaycan Respublikasi Prezidentinin qayğısı və himayəsi ilə yaxınlarda keçirilən beynəlxalq elmi seminar bu istiqamətdə Azərbaycan Xalq Cümhuriyyəti tarixinin araşdırılmasında yeni və mühüm bir mərhələnin təməlini qoymuşdur.

**Vahid Ömərov,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## XƏBƏRDARLIQ: Dadsız yeməklər beyinin fəaliyyətini pozur

Xayfa Universiteti (İsrail) alimləri 5 il ərzində müxtəlif pəhrizlərin insan beyninə olan təsirini araşdırırdı. "Komsomolskaya pravda"nın məlumatına görə, araşdırmalar göstərib ki, pəhriz saxlayan insanların bir çoxunda müəyyən müddətdən sonra müxtəlif nevroloji pozulmalar, o cümlədən nevroz və depressiya inkişaf edir. Alimlər aşkar ediblər ki, dadsız qida insanın emosional fonuna olduqca mənfi təsir edir, insanı əsəbi, səbirsiz, gərgin edir. Bu isə nevroloji pozulmalar üçün "əlverişli" şərait yaradır. Əgər insanda pəhrizə "oturmazdan" əvvəl psixoloji və nevroloji problemlər olubsa, pəhriz zamanı bu problemlər daha da artıq və dərinləşir.

Bütün bunlar, xüsusilə monopəhrizlərə (uzun müddət ərzində bir və ya 1-2 məhsulla qidalanmaq - məsələn, düyü, qarabaşaq pəhrizi, qatıq+qarabaşaq və s.) aiddir. Uzunmüddətli monopəhrizlər zamanı insan orqanizmində metabolik proseslər pozulur, tükənmə inkişaf edir ki, bu da beyin və ürəyə xüsusilə mənfi təsir edir, immun sistemini zəiflədir. Alimlər arıqlmaq məqsədi ilə sadəcə rasionun kalori miqdarını azaltmağı, dadlı yeməklərdən (o cümlədən, şirniyyatlardan) tam imtina etməməyi tövsiyə edirlər.

## ABŞ-da robot vasitəsilə ilk dəfə insan onurğasından şiş xaric edilib

Dünyada onurğadan şişin götürülməsi əməliyyatını ilk dəfə Amerika alimləri həyata keçiriblər. Həmin əməliyyatın uğurla aparılması zamanı Pensilvaniya universitetinin alimlərinə robot kömək edib. Əvvəl həmin texnika yalnız yumşaq toxumalarda aparılan əməliyyatlar zamanı tətbiq edilirdi. Bu barədə Penn Medicine News internet portalına istinadla məlumat verir.

Təcrübə nadir xordoma şişi aşkar edilmiş 27 yaşlı gənc üzərində aparılıb. O, avtoqəzaya düşəndən sonra yaranan onkoloji şiş yavaş-yavaş genişləndiyindən əməliyyat mümkün qədər tez aparılmalı idi. Əməliyyat zamanı xordomanın götürülməsi proseduru son dərəcə yüksək dəqiqlik tələb edir, çünki sümüklərin və ya yumşaq toxumaların zədələnməsi ehtimalı o qədər böyükdür ki, iflicə də səbəb ola bilər. Bu halda şişin tam götürülməməsi onun böyüməsini sürətləndirə bilər.

Nəticədə mütəxəssislər robotun köməyi ilə üç mərhələdən ibarət olan mürəkkəb əməliyyatın aparılmasına razılıq veriblər. Əməliyyatın ilkin mərhələsində dağılmış fəqərənin qəlpələri, ikinci mərhələdə robotun köməyi ilə şiş götürülüb, sonrakı mərhələdə isə fəqərələr bərpa edilib. Bunun üçün budun bir hissəsindən istifadə edilib. İyirmi saat davam edən əməliyyat nəticəsində pasiyent normal həyata qayıdıb.

## Nevroloqlar insanların özlərini qeyri-adekvat dəyərləndirmələrinin səbəbini açıqlayıblar

Alimlər baş-beynin maraqlı xüsusiyyətini aşkarlayıblar. Bu xüsusiyyət bizi bəzi anlarda çox qəşəng görünməyimiz qənaətinə gəlməyə yönəldir. Ümumiyyətlə, bu illüziya səbəbindən insan öz gözünə daha kök və ya qamətli görünə bilər. Bu barədə "Medical Express" yazır.

AZƏRTAC "MedDaily" saytına istinadla xəbər verir ki, beyin reallığın maksimal dəqiq vəziyyətini almaqdan, baş verən dəyişiklikləri korrekte etməkdən ötrü keçmişdə və indi alınan məlumatları qarışdırır. Qərbi Avstraliyada aparılan tədqiqatlara görə, bu, öz vücudunu dəyərləndirmədə baş verir. Lakin dəyərləndirmə dəqiq olmaya da bilər. Bu fenomeni araşdırmaq qərarına gələn ekspertlər 103 könüllü qadından ibarət qrup toplayıblar. Onlara müxtəlif qadın bədəninin (köklükdən tutmuş çəki azlığınadək) rəsmlərini göstəriblər. Könüllülər xüsusi proqramdan istifadə edərək rəsmlərdəki bədənləri dəyərləndiriblər.

Məlum olub ki, dəyərləndirməyə könüllülərin bu vaxtadək gördükləri bədən quruluşu təsir edib. Praktikada insana elə gələ bilər ki, o, kök deyil, əksinə qamətlidir. Sadəcə olaraq, beyin hələ də "xoş zamanları" yadda saxlayır.


**ELAN**

Azərbaycan Pedaqoji Universitetinin Tarix müəllimliyi ixtisası üzrə I kurs tələbəsi Üzbaşıyev Elmir Rafiq oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.


## Azərbaycanlı döyüşçü dünya çempionu olub



Azərbaycanın və "Qəbələ" İdman Klubunun döyüşçüsü Bəxtiyar Abbasov növbəti beynəlxalq titulunu qazanıb. AZƏRTAC xəbər verir ki, 33 yaşlı idmançımız MMA GEFC Global (Grand European Fighting Championship) dünya çempionu tituluna yiyələnib. O, bu uğura Bakıda, ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş MMA üzrə beynəlxalq turnirdə imza atıb.

Səksən dörd kiloqram çəki dərəcəsində çıxış edən B.Abbasov kəmər uğrunda döyüşdə braziliyalı Joze Eudes Tavareslə qarşılaşıb. Beş raundluq döyüşün ilk dəqiqələrindən üstünlüyü ələ alan idmançımız döyüşü vaxtından əvvəl qələbə ilə başa vurub. O, dördüncü raundda texniki nokautla qalib gəlib və dünya çempionu adına sahib çıxıb. "Qəbələ"nin daha bir idmançısı turnir çərçivəsində qüvvəsini sınayıb. Yetmiş kiloqram çəki dərəcəsində çıxış edən Hüseyn Əliyev Qazaxıstan idmançısı Aybek Nurseitlə üz-üzə gəlib. Bərabər mübarizə şəraitində keçən üç raundluq reytinq döyüşü heç-heçə ilə yekunlaşıb.



## Azərbaycanlı triatlonçu Dünya Kubokunda qızıl medal qazanıb

Triatlon üzrə Azərbaycan yığmasının üzvü Rostislav Pevtsov Çinin Çenqdu şəhərində keçirilən Dünya Kubokunda qızıl medal qazanıb. Azərbaycan Triatlon Federasiyasının məlumatında deyilir ki, yarış iki mərhələdən ibarət olub. Əvvəlcə idmançılar yarımfinalda mübarizə aparıblar. Rostislav yarımfinalda 5-ci olub və finala yüksəlib. İdmançımız finalda 500 metrlik su məsafəsini 6 dəqiqə 29 saniyəyə başa vurub. Sonra 10 kilometrlik veloyürüşü 13 dəqiqə 43 saniyəyə qət edib. Yarışın sonuncu mərhələsi - 2,5 kilometr məsafəyə qaçış üzrə isə R.Pevtsov 7 dəqiqə 03 saniyəlik nəticə göstərib. Ümumi hesablamada 28 dəqiqə 18 saniyə vaxt göstəricisi ilə R.Pevtsov birinci yerə layiq görülüb. Xatırladaq ki, Pevtsov cari mövsümdə Las Palmasda keçirilən Avropa Kubokunda ikinci olub və Misirin Şarm əş-Şeyx şəhərində təşkil olunan Açıq Afrika Kuboku yarışlarında gümüş medal qazanıb.

## Azərbaycan atleti Dohada bürünc medal qazanıb



Azərbaycan atleti Aleksis Kopelo Qətərin paytaxtı Dohada yüngül atletika üzrə Brilliant Liqasının birinci mərhələsində bürünc medal qazanıb. AZƏRTAC xəbər verir ki, üçtəkanla tullanma yarışlarında təmsilçimiz 17,21 metr nəticə göstərərək üçüncü olub. Yarışın qalibi adını Kuba idmançısı Pedro Pikardo qazanıb. ABŞ idmançısı Kristian Teylor isə yarışı ikinci pillədə başa vurub.



## İspaniya La Liqası: 176-cı "El Klassiko"da qalib müəyyənləşməyib

Mayın 6-da İspaniya La Liqasının 37-ci turu çərçivəsində "Barselona" ilə "Real Madrid" klubları qarşı-qarşıya gəlib. AZƏRTAC xəbər verir ki, 176-cı "El Klassiko"da meydana dünyanın ən bahalı futbolçularına malik iki komanda çıxıb. "Barselona" klubu 963 milyon avro ilə dünyada ən bahalı futbol komandası hesab edilir. "Real Madrid" isə 962,5 milyon avro ilə Kataloniya təmsilçisindən sonra bu göstəriciyə görə ikinci yeri tutur. İki komandanın oyunçularının hazırkı bazar qiyməti, ümumilikdə, 1 milyard 955 milyon avrodur. Dünyanın ən bahalı iki klubu "Nou Kamp" stadionunda qarşılaşıblar. "El Klassiko"da hesabı meydan sahibləri açıblar. Əks hücum zamanı Serxi Robertonun cinah ötürməsini Luis Suarez dəqiq zərbə ilə tamamlayıb - 1:0. Qoldan dörd dəqiqə sonra Kriştiano Ronaldo hesaba tarazlıq gətirib - 1:1. Kərim Benzemanın ötürməsini qola çevirən portuqaliyalı cari mövsümdə 25-ci qolunu vurub. Birinci hissənin bitməsinə bir dəqiqə qalmış Serxi Roberto qayda pozuntusuna görə qırmızı vərəqə alaraq meydandan kənarlaşdırılıb.

Gərginliyi ilə yadda qalan birinci hissədə baş hakim Alexandro Hernandez beş sarı və bir qırmızı vərəqə göstərib. Fasilədən dərhal sonra hücuma atılan meydan sahibləri 53-cü dəqiqədə yenidən hesabda irəli çıxıblar. Çempionatın bombardiri Leo Messi baxımlı qolla adını tabloya yazdırıb -2:1.

Qarşılıqlı hücumlar şəraitində keçən görüşün 73-cü dəqiqəsində Marko Asensionun ötürməsindən sonra Garet Beyl dəqiq zərbə ilə topu qapıdan keçirdib - 2:2.

97 min 939 nəfərin birbaşa stadiondan izlədiyi qarşılaşma elə bu hesabla başa çatıb. Əzəli rəqiblər bu oyunadək ölkə çempionatında 175 dəfə qarşılaşmışdılar. Bu matçların 70-də "Barselona", 72-də isə "Real Madrid" qələbə qazanıb, 33 matç isə heç-heçə yekunlaşmışdı. Çempionluğunu vaxtından əvvəl rəsmiləşdirən "Barselona" 87 xalla turnir cədvəlinin zirvəsində qərarlaşıb. "Atletiko Madrid" 75 xalla ikinci, "Real Madrid" 72 xalla üçüncü, "Valensiya" isə 67 xalla dördüncüdür.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur

*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**